**AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**ADA UNİVERSİTETİ**

**TƏHSİL FAKÜLTƏSİ**

**TƏLİM VƏ TƏDRİSİN TƏŞKİLİ VƏ METODİKASI**

# Pedaqoji ixtisaslarda təhsil alan tələbələrin müəllimlik peşəsinə münasibətləri: Region universiteti nümunəsində

**Məlahət Əsgərova**

**Email:masgarova16735@ada.edu.az**

**Bakı, 2024**

**Pedaqoji ixtisaslarda təhsil alan tələbələrin müəllimlik peşəsinə münasibətləri: Region universiteti nümunəsində**

**Məlahət Əsgərova**

**Dissertasiya**
**MAGİSTR DƏRƏCƏSİ**
**üçün hazırlanıb.**

**ADA UNİVERSİTETİ**

**MAY 2024**

**Dr. Rza Məmmədov, elmi rəhbər**
**Dr. Ülkər Babayeva, komitə üzvü**
**Dr. Taner Atmaca, komitə üzvü**
**Dr. Ülviyyə Mikayılova, Təhsil fakültəsinin dekanı tərəfindən**
**TƏSDİQ EDİLMİŞDİR.**

## HƏQİQİLİK BƏYANATI

Mən ADA-nın plagiat siyasəti ilə tanış olmuşam və təsdiq edirəm ki, bu dissertasiyanın məzmunu (Pedaqoji ixtisaslarda oxuyan tələbələrin müəllimlik peşəsinə münasibətləri: Region universiteti nümunəsində) mənim şəxsi işimdir və heç bir təsdiq olunmamış işi ehtiva etmir.

İmza:____________

Tarix: ___________

Müəlliflik hüququ Əsgərova Məlahətə aiddir.

Müəllif hüquqları qorunur.

# Xülasə

## Pedaqoji ixtisaslarda təhsil alan tələbələrin müəllimlik peşəsinə münasibətləri: Region universiteti nümunəsində

**Məlahət Əsgərova**

**ADA Universiteti**

Bu tədqiqatın məqsədi, regionda fəaliyyət göstərən universitetin pedaqoji ixtisaslarında təhsil alan tələbələrin müəllimlik peşəsinə münasibətlərini öyrənməkdir. Tədqiqatda, region universiteti nümunəsində pedaqoji ixtisaslarında təhsil alan tələbələrin müəllimlik peşəsinə dair münasibətlərini öyrənməyi və bu münasibətlərin cinsiyyət, qəbul balı, təhsil aldıqları ixtisas və ailədə müəllimlik peşəsinə sahib olan şəxsin olub-olmaması dəyişkənlərinə görə statistik olaraq əhəmiyyətli şəkildə fərqlilik göstərib-göstərmədiyini müəyyən etmək məqsədi qoyulduğu üçün kəmiyyət tədqiqat metoduna daxil olan anket sorğusundan istifadə edilmişdir. Tədqiqat zamanı məlumatları toplamaq üçün, demoqrafik göstəriciləri ilə bağlı suallar ilə birlikdə, validliyi və etibarlılığı Üstüner (2006) tərəfindən yoxlanılmış "Müəllimlik Peşəsinə Münasibət (Öğretmenlik Mesleğine Yönelik Tutum Ölçeği)" adlı 34 maddədən ibarət beşli qiymətləndirmə şkalasında istifadə olunmuşdur. Tədqiqatda, 2023-2024-cü akademik ilində regionda fəaliyyət göstərən universitetdə təhsil alan 385 nəfər müəllim namizədi iştirak etmişdir. Məlumatların təhlili üçün, müstəqil t Testi, tək yönlü varyans (ANOVA) analizlərindən istifadə olunmuşdur.

Tədqiqatın nəticələrinə əsasən, müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətinin ümumi olaraq "yüksək" olduğu müəyyən olunmuşdur. Bundan əlavə, müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətlərində qəbul balı və ailədə müəllimlik peşəsində

şəxsin olub-olmaması dəyişkənlərinə görə statistik olaraq əhəmiyyətli fərqlilik müəyyən olunmamışdır. Lakin müəllim namizədlərinin peşəyə münasibətləri cinsiyyət dəyişkəni və təhsil aldıqları ixtisas baxımından statistik olaraq əhəmiyyətli fərqlilik göstərmişdir.

**Açar sözlər:** müəllim hazırlığı, müəllimlik peşəsinə münasibət, müəllim namizədləri

# Abstract

The purpose of this investigation is to study the attitude of students studying pedagogical specialties of the university operating in the region to the teaching profession. In this investigation the attitudes of students studying in the pedagogical specialties in the example of a regional university towards the teaching profession and to determine whether these attitudes show statistically significant differences according to gender, admission score, the specialty they studied and whether there is a person in the family who owns the teaching profession or not, a questionnaire included in the quantitative research method was used. In order to collect data during the research, a five-point evaluation scale consisting of 34 items called "Attitude towards the teaching proffession" whose validity and reliability were checked by Üstüner (2006), was used to collect data. 385 teacher candidates studying at the university operating in the region in the 2023-2024 academic year participated in the investigation. For data analysis, independent t-test, one-way analysis of variance (ANOVA) analysis were used. According to the research results, it was determined that the attitude of teacher candidates towards the teaching profession is generally "high". In addition, no statistically significant difference was determined in the attitude of teacher candidates to the teaching profession according to the variables of acceptance score and whether there is a person in the teaching profession in the family. However, the attitudes of teacher candidates to the profession showed statistical differences in terms of gender variable and the specialty they studied.



Key words: teacher training, attitude towards the teaching profession, teacher candidates

# Minnətdarlıq

İlk öncə, elmi rəhbərim Dr. Rza Məmmədova bu dissertasiyanı yazarkən mənə daimi dəstəyi və köməyinə görə sonsuz təşəkkürlüyümü bildirirəm. Onun təcrübəsi, anlayışı və rəyi tədqiqat işimin formalaşmasında mühüm rol oynadı.

Kurs boyunca, dissertasiya işimi yazmaq üçün mənə yeni biliklər öyrədən, dəyərli fikir və məsləhətləri üçün kurs müəllimim Dr. Könül Abaslıya, çox təşəkkür edirəm.

Magistratura təhsilim boyunca məni daim dəstəkləyən ailəmə dərin təşəkkürlüyümü bildirirəm. Onların sevgisi, anlayışı və səbri mənim üçün daimi motivasiya mənbəyi olub.

Nəhayət, akademik məqsədlərimi həyata keçirmək üçün, mənə resurslar və imkanlar təqdim etdiklərinə görə, ADA universitetinin əməkdaşlarına, professor-müəllim heyətinə, xüsusilə də Təhsil Fakültəsinin dekanı Dr. Ülviyyə Mikayılovaya iki illik təhsilim boyunca bütün suallarımı cavablandırdığı və dəyərli məsləhətləri üçün minnətdarlığımı bildirmək istəyirəm.

# Mündəricat

I FƏSİL ........ 10
GİRİŞ ........ 10
1.1.Tədqiqatın aktuallığı ........ 11
1.2.Tədqiqatın məqsədi ........ 13
1.3. Məhdudiyyət ........ 14
II FƏSİL ........ 15
KONSEPTUAL ÇƏRÇİVƏ ........ 15
2.1.Müəllimlik peşəsi və onun əhəmiyyəti ........ 15
2.2.Müəllimlik peşəsinə müasir yanaşma ........ 17
2.3.İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə müəllim hazırlığı proqramları ........ 25
2.3.1.Finlandiya ........ 25
2.3.2.Cənubi Koreya ........ 26
2.3.3.Almaniya ........ 27
2.3.4. Amerika Birləşmiş Ştatları (ABŞ) ........ 28
2.3.5.Türkiyə ........ 29
2.3.6. Sinqapur ........ 30
2.3.8. İngiltərə ........ 32
2.3.9. Azərbaycan ........ 33
2.4. Müəllim namizədlərinin müəllimlik peşəsinə münasibəti ilə əlaqəli yerli və beynəlxalq ədəbiyyatın təhlili ........ 34
FƏSİL III ........ 39
METODOLOGİYA ........ 39
3.1.Tədqiqatın metodu ........ 39
3.2. Populyasiya və tədqiqat qrupu ........ 39
3.3. Data toplama texnikası ........ 40
3.4. Pilot tədqiqat ........ 40
FƏSİL IV ........ 42
TAPINTILAR ........ 42
4.1. İştirakçıların demoqrafik məlumatlarına dair nəticələr ........ 42
4.2. Müəllim namizədlərinin ixtisas seçimi ilə bağlı statistika nəticələri ........ 45
4.2.1.Struktur etibarlılığı ........ 45
4.2.2.Normallıq dəyərləri ilə bağlı tapıntılar ........ 48
4.2.3.Fərqlənmə testləri ilə bağlı tapıntılar ........ 50
FƏSİL V. NƏTİCƏ VƏ TƏKLİFLƏR ........ 60

**5.1. Nəticə** ... 60
**5.2. Təkliflər** ... 62
**ƏDƏBİYYAT** ... 65
**Qoşma 1. Ölçmə aləti** ... 74
**Qoşma 2. Ölçmə alətinin istifadəsi üçün razılıq məktubu** ... 77
**Qoşma 3. Ölçmə aləti ilə bağlı mütəxəssis rəyi** ... 78

# I FƏSİL

# GİRİŞ

Müəllimlik peşəsi və müəllimlik peşəsinin əhəmiyyəti, müəllimin rolu, müəllim hazırlığı və müəllimə münasibət kimi məsələlər bütün cəmiyyətlərdə aktual məsələ olaraq qalır və inkişaf səviyyəsindən asılı olmayaraq, demək olar ki, hər bir ölkədə müəllim hazırlığı prosesi vacib hesab olunur (Balaban & Arslan, 2022). Müəllimlərin peşəkarlıq və səriştəlilik səviyyəsinin yüksəldilməsi hazırda təhsil sistemlərində ən zəruri və ehtiyac duyulan sahələrindən biridir. Beynəlxalq qiymətləndirmə, müəllimlərin bilik və bacarıqlarını dəyərləndirən təşkilatların apardığı sorğu və təqdim etdiyi hesabatlar buna işarət edir. Nümunə olaraq, OECD, UNESCO kimi təşkilatları göstərmək olar.

Müəllim - açıq fikirli, müasir, özünü yeniləyən, fərdi fərqləri nəzərə alan, yalnız biliyi ötürməkdənsə, öyrənənlərə müvafiq öyrənmə təcrübəsi təqdim edən, əməkdaşlığı təşviq edən, demokratik mühit yaradan kimi rolları öz öhdəliyinə götürən şəxsdir. İfadə edilən, bu rolları müvəffəqiyyətlə həyata keçirməyin yeganə yolu, müəllimlik peşəsinə müsbət münasibət bəsləməkdən irəli gəlir. Müəllimlik peşəsi, bilik və bacarıqlarla yanaşı, müsbət münasibət və müntəzəm vərdişlər tələb edən bir peşədir (Kuyumcu & Kaya, 2020). Bu səbəbdən müəllim namizədlərinin bilik qədər peşəyə dair dəyər və müsbət münasibətə yiyələnməsi arzu olunandır.

Pedaqoji ixtisaslarında təhsil alan tələbələrin, ixtisaslarına münasibətləri, peşələrini müvəffəqiyyətlə icra etmələri üçün önəmli əhəmiyyət kəsb edir. Çünki, münasibət fəaliyyətlərin üzə çıxması və inkişaf etdirilməsi üçün önəmli rola sahibdir (Ekici, 2014). Münasibət fərdin özünə və ya ətrafdakı hər hansı obyektə, sosial məsələyə və ya vəziyyətə zehni, emosional və davranış reaksiyasıdır (Zarzolawmi, 2019). Müəllimlik peşəsinə münasibət deyəndə, fərdin, bu peşə haqqında, düşüncələri, hissləri və fəaliyyətləri, peşənin tələblərinə uyğun olaraq, daim öyrənmə, öyrətmək istəyi, peşəyə bağlılığı, davamlı özünü təkmilləşdirmək

istəməsi kimi müəyyən edilə bilər. Səbir, fədakarlıq və davamlı çalışma tələb edən müəllimlik peşəsində müvəffəqiyyət əldə etmək üçün bu peşəni sevərək və həvəslə icra etmək çox vacibdir (Wagner & Imanuel, 2014). Beləliklə ifadə etmək olar ki, cəmiyyətin inkişafında mühüm yeri olan və fərqli ixtisaslar üzrə təhsil alan, müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətlərinin üzə çıxarılması son dərəcə əhəmiyyətli hesab olunur. Bilindiyi kimi müəllimlərin cəmiyyətin gələcəyinə mühüm təsir edən, insan kapitalını formalaşdırılmasında xüsusi yeri vardır. Müəllimlərin bilik, bacarıq və davranışları ilə yanaşı onların bu peşəyə qarşı hiss və duyğuları həm özlərinə, həm də tələbələrin bacarıqlarının formalaşdırılmasında əsas rol oynayır. Müəllim namizədlərinin yetişdirilməsində qarşılaşılan problemlər cəmiyyətlərdə insan kapitalının kəmiyyət və keyfiyyət dərəcəsinə təsir etdiyi deyilə bilər. Bu səbəbdən müəllim namizədlərinin pedaqoji fəaliyyət üçün əldə edəcəkləri bilik və bacarıqlarla yanaşı onların bu peşəyə qarşı hiss və duyğularının öyrənilməsi, müəllim namizədlərinin peşə marağının bilinməsi zəruridir.

## 1.1.Tədqiqatın aktuallığı

Müasir dövrdə, müəllimlərin hazırlanması üzrə olan mövcud proqramlar cəmiyyətin ehtiyac və gözləntilərinə uyğun olaraq yenidən formalaşdırılır (Sütçü & Oral, 2021). Bu səbəblə, cəmiyyətin ehtiyac duyduğu, fərqli sahələr üzrə insan yetişdirməsində və şəxsiyyətin inkişafında əsas rola malik olan müəllimlik peşəsinə yiyələnmək üçün tədrisi aparılan ixtisaslarda oxuyan, müəllim namizədlərinin, müəllimlik peşəsinə münasibətini müəyyən edilməsi son dərəcə əhəmiyyətlidir. Müəllim hazırlığı ixtisaslarında oxuyan tələbələrin peşə ilə bağlı müsbət münasibət və dəyərlərə yiyələnmələri və müsbət qavrayışlara malik olmaları onların peşə həyatlarında uğurlarının müəyyənedici amilləri kimi görülür (Alkhateeb, 2013). Müəllimlərin peşə seçiminə təsir edən faktorlar, seçdikləri peşə ilə bağlı təsəvvürləri və aldıqları təhsil onların peşə ilə bağlı münasibətlərinə yaxşı və ya pis yöndə təsir edə bilər.

Pedaqoji ixtisaslarda təhsil alan tələbələrin öz peşələrinə dair təsəvvürləri və bu təsəvvürlərdən irəli gələn münasibətlər onların gələcəklə bağlı gözləntilərinin formalaşmasına təsir edə biləcəyi üçün onların peşəkar bilik, bacarıq, münasibət və dəyərlərinin inkişafına dəstək verib, motivasiyalarını artırmaqla tədrisə necə yanaşdıqlarını əhəmiyyətli dərəcədə müəyyən etmək mümkün ola bilər. Bundan əlavə, müəllimlik ixtisasına müsbət münasibət müəllimliyə namizədlərin inkişafla ayaqlaşmalarını, dəyişən peşəkar səriştələrə yiyələnmələrini və peşəkar müəllim profili yaratmalarını asanlaşdıracaq (Ekici,2014). Bu çərçivədə, pedaqoji ixtisaslarda təhsil alan tələbələrin, müəllimlik peşəsinə münasibəti araşdırılaraq və əldə olunan nəticələr təhlil olunaraq, gələcəkdə, təhsil sahələrində fəaliyyət göstərəcək olan müəllim namizədlərinin öz peşəsinə münasibətlərinin hansı səviyyədə olmasını bilmək, bu sahədə fəaliyyət göstərmək niyyətlərinin və təhsil sisteminə verəcəyi töhfələrin proqnozlaşdırılmasına dəstək verə biləcəyi tədqiqatın aktuallığını göstərir. Bu səbəbdən, pedaqoji ixtisaslarda təhsil alan tələbələrin müəllimlik peşəsinə münasibətinin müəyyənləşdirilməsi ilə bağlı cari tədqiqatların aparılması əhəmiyyətlidir.

Müəllimlik peşəsini əhəmiyyətini araşdırmaq və pedaqoji ixtisaslarda oxuyan tələbələrin müəllimlik peşəsinə münasibətlərini, bu peşə ilə bağlı fikirlərini öyrənmək üçün çox sayda beynəlxalq araşdırmalar var. Ancaq, yerli və beynəlxalq ədəbiyyatlarda azərbaycanlı müəllim namizədlərinin, peşələrinə münasibətlərinin tədqiqi edildiyi, hər hansı araşdırma işinə rast gəlinməmişdir. Azərbaycanda, müəllimlik ixtisası ilə bağlı araşdırmalar, müəllimlərin pedaqoji fəaliyyəti, müəllimin şəxsiyyəti, müəllim səriştəliyi, müəllimlərin peşəkar inkişaf səviyyəsinin təkminləşdirilməsi yolları  kimi mövzularda olmuşdur (Muradlı & Şahmuradova, 2022; Paşayev, 2017; Verdiyeva, 2019). Bu çərçivədə, regionda fəaliyyət göstərən universitetin pedaqoji ixtisaslarında  təhsil alan tələbələrin müəllimlik peşəsinə münasibətlərinin öyrənilməsi əhəmiyyətlidir. Azərbaycanda, xüsusi ilə də, bölgədə fəaliyyət göstərən universitet nümunəsində belə bir araşdırmanın  olmaması, bu tədqiqatın yeniliyini göstərməkdədir.

Müəllimlik ixtisası ilə bağlı olan, elmi araşdırmalar da qeyd olunur ki, müəllim namizədlərinin müəllim kimi fəaliyyətə başlamalarından öncə, onların öz peşələrinə olan münasibətlərində ola biləcək çatışmazlıqların müəyyən edilməsi və onların həll yollarının tapılması sayəsində, öz peşəsini sevərək icra edən müəllimlərin yetişdirilməsi həyata keçirilə bilər (Alkan, 2018; Balaban & Arslan, 2022; Kumar, 2016; Özkan, 2020). Bu kontekstdə, Azərbaycanda pedaqoji istiqamətdə olan təhsilin keyfiyyətinin yüksəldilməsi üçün müəllimlərin öz peşəsinə münasibət və fikirlərinin müəyyənləşdirilməsi və bunun əsasında müsbət münasibətlərin formalaşması istiqamətində müəyyən səylər göstərilməsi vacibdir. Bu baxımdan, tədqiqat zamanı əldə olunacaq nəticələrin qismən də olsa, müəllim namizədlərinin seçilməsi meyarlarına dəstək verilməsi, müəllim hazırlığı həyata keçirən proqramların səmərəli olması və təkmilləşməsi üçün müəyyən təkliflər verməsi və pedaqoji fakültənin müəllim hazırlığı sahəsində olan boşluqları doldurması baxımından töhfə verəcəyi gözlənilir.

## 1.2.Tədqiqatın məqsədi

Araşdırmanın məqsədi, 2023-2024-cü tədris ilində regionda fəaliyyət göstərən universitet nümunəsində pedaqoji ixtisaslarda təhsil alan müəllim namizədlərinin müəllimlik peşəsinə dair münasibətlərini öyrənməkdir. Bu çərçivədə, tədqiqatda aşağıdakı suallara cavab axtarılmışdır:

1. Müəllim namizədlərinin müəllimlik peşəsinə dair münasibəti necədir?
2. Müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətləri cinsiyyət, qəbul balı, təhsil aldıqları ixtisas və ailədə müəllimlik peşəsinə sahib olan şəxsin olub-olmaması faktorlarına görə statistik olaraq əhəmiyyətli fərqlilik göstərirmi?

## 1.3. Məhdudiyyət

Hər bir tədqiqatın elmi yeniliyi və mövzunun öyrənilməsi baxımından məhdudiyyəti vardır. Bu tədqiqatın da vaxt və məkan çərçivəsində məhdudlaşdırılmışdır. Belə ki, tədqiqat, 2023-2024-cü tədris ilində regionda fəaliyyət göstərən universitetin pedaqoji ixtisaslarında təhsil alan tələblərin fikirləri ilə məhduddur.

# II FƏSİL

# KONSEPTUAL ÇƏRÇİVƏ

Bu fəsildə tədqiqatla əlaqəli olaraq nəzəri və konseptual çərçivə təqdim edilməkdədir. Müəllimlik peşəsi və onun əhəmiyyəti, müəllimlik peşəsinə müasir yanaşma, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə müəllim hazırlığı proqramları haqqında ümumi məlumat verilməkdədir. Ardından mövzu ilə bağlı milli və beynəlxalq tədqiqatlar təqdim edilir.

## 2.1.Müəllimlik peşəsi və onun əhəmiyyəti

Qədim dövrlərdən günümüzə qədər olan dövrə nəzər saldıqda təhsilin bütün insanlar üçün həmişə ən vacib məsələlərdən olduğu müşahidə edilir. Müəllimlik peşəsinin tarixi, təhsilin ən qədim dövrlərindən etibarən inkişaf etmiş və zamanla dəyişən təhsilin tələblərinə uyğun olaraq formalaşmışdır. İlk insanlar özlərini və özlərindən sonra gələn nəsilləri öyrədən insanlar idi. Bu insanlar müəllim kimi adlandırılırdı və təhsil prosesinin inkişafında əsas rol oynayırdılar. Antik dövrdə müəllimlik peşəsi bədii və mənəvi elmlərin öyrədilməsi üzərində inkişaf etdi. Misal üçün, Sokrat tələblərinə oxuma, yazma və düşünmə üsullarını öyrətməklə məşğul olmuşdur. Orta əsrlərdə, müəllimlik peşəsi İslam mədəniyyətinin inkişafı ilə daha da önəmli hala gəlib. Təhsil müəssisələri, məktəblər və universitetlər yaranmış, oxuma, yazma, riyaziyyat, din ilə bağlı məsələlər öyrədilmişdir (Eraslan, 2015). Yeni dövrdə, yaradılmış tədris müəssisələri ilə bağlı yeniliklər baş verib və müəllimlər təhsil almaq üçün daha səmərəli yol kimi görülübdür. Bu gün isə müəllimlik peşəsi bir çox sahələrdə mövcuddur (Coşkun, 2022).

Müəllimlik peşəsi, təhsilin əsasını təşkil edir və öyrənənlərin mənəvi, intellektual və sosial inkişafına nail olmalarında əhəmiyyətli rola malikdir. Müəllimlər öyrənənlərə bilik, bacarıq və mənəvi dəyərlər verir. Bu dəyərlər, insanların həyatında çox vacib rola malik olub, gələcək karyeralarını və həyat tərzlərini müəyyən edir. Müəllimlər, təlim, təhsil və öyrənmə proseslərini inkişaf etdirmək üçün müxtəlif təlim metodları, texnologiyalar və strategiyalardan

istifadə edir. Müəllimlər təhsilalanlara yaxşı təhsil və öyrənmə təcrübəsi verməklə onların həyatını dəyişdirə bilərlər. Müəllimlərin əməkdaşlığı, öyrənənlərə təsiri və öyrənmə prosesini inkişaf etdirmək üçün göstərdikləri cəhd və sevgi müəllimlik peşəsinin əhəmiyyətini və dəyərini artırır (İlyasov, 2018). Bu səbəbdəndir ki, hər bir ölkə təhsil siyasəti üzərində ciddi durur.

Təhsil hər bir ölkənin fəaliyyətinin önəmli bir sahəsidir. Çünki bir ölkənin inkişafı, firavanlıq səviyyəsinə çatması, parlaq gələcəyə, nəslə sahib olması ancaq təhsillə mümkündür. Bütün cəmiyyətlərin uğur qazanmasının və gələcəyə doğru irəliləməsinin yolu təhsildən keçir (Becker, 2001). Hər bir təhsil sisteminin uğuru isə, həmin sistemində yetişdirilən müəllimlərin keyfiyyətindən asılıdır. Çünki müəllimlər gələcək nəsillərin şüurunu yetişdirmək üçün məsul şəxslərdir. Bu gün müəllimlik peşəsi, sosial, mədəni, iqtisadi, elmi və texnoloji ölçüləri olan, öz sahəsində xüsusi təcrübə və müəyyən peşəkar keyfiyyətlər tələb edən təhsillə bağlı fəaliyyət sahəsi kimi müəyyən edilir (Ünsal, 2021).

Ünsala (2021) görə, müəllimlik peşəsinə, cəmiyyəti formalaşdıran, mədəniyyəti ötürən, təhsilalanların inkişafına dəstək verən, tədris və təlim prosesini idarə edən, peşəkar bilik, fədakarlıq və empatiya tələb edən peşə kimi tərif vermək olar. Özden (2002) araşdırmasında, müəllimlik peşəsinin cəmiyyətdə əmin-amanlığına təmin olunmasında, ölkənin inkişafında, şəxsiyyətin sosial həyata hazırlanmasında və ixtisaslı kadrların yetiştirilməsində mühüm yeri olduğu qənaətinə gəlmişdir. Boudersa (2016) görə, müəllimlər öyrənməni təşviq edən müsbət və dəstəkləyici sinif mühiti təmin edir və eyni zamanda müəllimlər, təhsilalanların şəxsiyyətlərinin formalaşmasında, akademik, sosial və emosional inkişafının dəstəklənməsində önəmli rola sahibdir. Təhsilalanın savadlı və mütəşəkkil şəxs kimi inkişafı, müəllimin akademik bacarıqları, təcrübəsi və peşəkarlığı ilə birbaşa əlaqəlidir. Müəllimin bu xüsusiyyətləri ilə təhsilalanların uğuru arasında güclü əlaqə mövcuddur (Abbasov & Hacıyev, 2012). Təhsil sistemində baş verən dəyişikliklər və keyfiyyətli təhsil anlayışında dəyişən prespektivlər

göstərir ki, təhsildə keyfiyyətin birinci şərti müəllimdir. Təhsilin keyfiyyətinin yüksəldilməsi, ixtisaslı müəllimlərin yetişdirilməsi ilə mümkündür (Arslan & Vezne, 2021). Müəllimlər ölkənin inkişafında, ixtisaslı kadrların yetişdirilməsində, cəmiyyətdə sosial əmin-amanlığın təmin olunmasında, şəxsiyyətin həyata hazırlanmasında cəmiyyətin mədəniyyətinin və dəyərlərinin gələcək nəsillərə çatdırılmasında aparıcı rol oynayır. Təhsilə böyük töhfə verən müəllimlərin yetişdirilməsi, bu töhfənin artırılması məqsədinə xidmət edir.

## 2.2.Müəllimlik peşəsinə müasir yanaşma

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində də köklü islahatlar aparmış, cəmiyyətin ehtiyac və tələbatlarını ödənilməsi məqsədi ilə çoxlu sayda təhsil müəssisələri və təhsil formaları yaradılmışdır. Ən yeni dövrdə, ölkədə pedaqoji sahədə kadr hazırlığı ali təhsil müəssisələri (universitet, akademiya, institut və kolleclər) tərəfindən həyata keçirilir. Ümumilikdə, respublikada müəllim kadrlarının hazırlığı 22 ali (10 dövlət, 12 özəl), 26 orta ixtisas (23 dövlət və 3 özəl) və 1 ixtisasartırma təhsili müəssisəsində aparılır (Azərbaycan Respublikasının Nazirlər Kabineti, 2007).

Azərbaycan Respublikasında təhsil islahatlarının 1998-ci ildən etibarən həyata keçirilməyə başlanıldığını söyləmək olar. Bu dövrdə, ölkəmizdə təhsil sahəsində sistemli, məqsədyönlü və çoxpilləli islahatların keçirilməsi zərurəti yaranmış və təhsil sahəsində vacib dəyişikliklərin edilməsi mühüm hal almışdır. Elm, təhsil, siyasət, mədəniyyət sahəsində həyata keçirilən islahatlar cəmiyyətin təzədən bərpa olunmasına və daimi olaraq inkişaf etməsinə istiqamətlənmişdir. Bu cür islahatların nəticəsində, Birləşmiş Millətlər Təşkilatının (BMT) İnsan İnkişafı hesabatına əsasən Azərbaycan dövləti 169 ölkə içərisindən 101-ci yerdən 67-ci yerə qədər yüksəlmiş, "orta insan inkişafı" təbəqəsindən "yüksək insan inkişafı" təbəqəsinə keçmişdir. Bu və ya bu kimi sahələrdə irəliləyiş birbaşa olaraq təhsilin inkişafı ilə bağlıdır (Rüstəmov, 2013).

Azərbaycanda zamanın tələbinə uyğun olaraq, daim təhsil islahatları aparılır və həmişə irəliləmək məqsədilə müəyyən addımlar atılır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 102 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Fasiləsiz Pedaqoji Təhsil və Müəllim Hazırlığının Konsepsiya və Strategiyası" bu addımlardan biridir. Bu sənəd, ölkədə təhsilin ümumi keyfiyyətini yüksəltmək məqsədi daşıyan təşəbbüsdür. Müasir təhsil sisteminin tələblərinə cavab verən zəruri bilik və səriştələrə malik yüksək ixtisaslı pedaqoji kadrların hazırlanması bu strategiyanın əsas istiqamətlərindən biridir. Sənəddə qeyd olunur ki, 1777 tərbiyə müəssisəsini, 4565 ümumtəhsil məktəbini, 110 texniki peşə məktəbini, 60 orta ixtisas, 47 ali və 1 ixtisasartırma təhsil müəssisələrini müəllim kadrları ilə təmin edir. Ümumilikdə, 2 milyona qədər vətəndaşın təhsil aldığı 6560 təhsil müəssisəsi üçün pedaqoji kadr hazırlığını təmin edir və bu zaman həmin müəssisələrdə 200 mindən artıq pedaqoji heyət fəaliyyət göstərir (Azərbaycan Respublikasının Nazirlər Kabineti, 2007). Eyni zamanda sənəddə qeyd olunur ki, 2007-ci il üzrə ölkədə 4565 ümumtəhsil məktəbi fəaliyyətdədir. Bütün növlərdən olan 4565 ümumtəhsil məktəbdə 171479 pedaqoji işçi, 1689676 şagirdin tərbiyəsi və təhsili ilə məşğul olur. Orta hesabla, ölkədə bir məktəb üzrə şagirdlərin sayı 370 nəfər, müəllim kadrlarının isə orta hesabla sayı 37,5, bir nəfər müəllim üzrə isə şagirdlərin sayı orta hesabla 9,85-dir.

Təhsil sahəsində aparılan islahatlara göstəriləcək nümunələrdən biri də Azərbaycan Respublikasının Prezidentinin 24 oktyabr 2013-cü ildə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sərəncamıdır. Təhsil strategiyası Azərbaycan Respublikasında məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil pillələrində mövcud olan potensialı qorumaq və inkişaf etdirmək üçün təşkil olunmuş və tənzimləyici normativ hüquqi bazanı gücləndirmək məqsədilə hazırlanmış sənəddir. Bu strategiya müasir təhsilin vəziyyətini, inkişaf dinamikasını, xüsusiyyətlərini, vəzifələrini, hədəf və tələblərini

özündə əks etdirir və habelə beynəlxalq təcrübə və meylləri öyrənir. Bu baxımdan, sənəddə 5 istiqamət müəyyən olunmuşdur:

1. Təcrübəyə əsaslanan şəxsiyyət - mərkəzli təhsilin yaradılması;
2. Təhsil sahəsində insan potenisalının modernləşdirilməsi;
3. Təhsildə nəticələr əsasında cavabdehlik, açıq və səmərəli idarəetmə sisteminin yaradılması;
4. Daimi öyrənməni dəstəkləyən təhsil infrastrukturunun formalaşdırılması;
5. Beynəlxalq standartlara uyğun olaraq, təhsilin maliyyələşdirilməsi.

Rüstəmov (2013) qeyd edir ki, müəyyən olunmuş istiqamətləri tətbiq etmək üçün, elmi bacarıqları, təhsil təcrübəsi, iş bacarığı ilə fərqlənən professional müəllim kadrlarının hazırlanması müəllimlik peşəsinin nüfuzunu inkişaf etdirilməsini tələb edir. Yüksək səviyyəli və səriştəli müəllim kadrların yetişdirilməsinin birinci şərti, pedaqoji peşəyə seçimin doğru, məsuliyyətli, aydın aparılmasına bağlıdır. Bunun üçün isə, birinci olaraq pedaqoji sahəyə, müraciət edən abituriyentlərin iş bacarığı yoxlanılmalıdır. Lakin, ali məktəblərə tələbələrin qəbul olunması sistemi bu seçimi icra etməyə imkan vermir. Pedaqoji ixtisaslara müraciət edən tələbələrin peşəyə istəkləri, maraqları, peşə bacarıqları, xüsusi ilə də ibtidai sinif müəllimliyi ixtisasında qəbul olmaq istəyən abituriyentlərin yazı qabiliyyətləri və nitq mədəniyyətləri yoxlanılmır. Musiqi peşəsi ilə məşğul olan şəxs üçün səs duyumu, rəssamlıqla məşğul olan şəxs üçün rəng duyumu necə mühümdürsə, müəllim üçün də pedaqoji səriştəliliyin, bacarıq və qabiliyyətin olması o qədər mühüm və zəruridir. Çünki müəllimin peşəsi və cəmiyyətdəki vəzifələri onun şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Müəllim öyrənənlər, valideynlər və ictimaiyyət üçün nümunə olmalıdır. Bu səbəbdən də, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” adlı sənədi pedaqoji ixtisaslarda

təhsil alan tələbələrin öyrənməsi və inkişafı eləcə də naliyyətlərinin qiymətləndirilməsində əsas prioritet hesab olunur.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2024-cü il 15 may tarixli KQ-07 nömrəli qərarı ilə "Təhsilverənlərin etik davranış qaydaları" başlıqlı sənəd təsdiq olundu. Sənəd, təhsilin hər səviyyəsində, təhsil verənlərin peşə fəaliyyəti zamanı davranışlarını, təhsilalanlar və digər təhsil prosesinin iştirakçıları ilə münasibətlərini müəyyən edən qaydalardan ibarətdir (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, 2024). Sənəddə əks olunan qaydalar, Azərbaycan Respublikasının "Təhsil haqqında" qanununa, müvafiq qanunvericilik aktlarına və "Təhsil prosesi iştirakçılarının etik standartlar modeli" nə uyğun olaraq tərtib olunub. "Təhsilverənlərin etik davranış qaydaları"nın tətbiqində əsas məqsəd, bütün təhsil müəssisələrində effektiv işgüzar vəziyyətin təmin edilməsi, valideynlərin və digər vətəndaşların təhsil müəssisələrinin idarə olunması prosesinə daha yaxından iştirakını təmin etmək, təlim, tərbiyə prosesinin inkişafına nail olmaq və təhsil verənlərin nüfuzunu artırmağa nail olmaqdır. Sənəddə, qeyd olunan vacib nüanslardan biri də müəllimlərin peşə fəaliyyətlərində gözləməli olduğu "etik davranış prinsipləri və ona uyğun tələblər"dir. "Etik davranış prinsipləri və ona uyğun tələblər" aşağıdakı kimi verilir:

Qanunun aliliyi - müəllim öz vəzifəsini icra edərkən, Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, ölkəmizin dəstəklədiyi beynəlxalq sazişlərin tələbləri, insan hüquqları və demokratik prinsiplər çərçivəsində hərəkət etməlidir; Vicdanlılıq - müəllim fəaliyyətini cəmiyyətin və dövlətin tələblərinə uyğun effektiv, səmərəli və keyfiyyətlə icra etməli və bütün şəxslər üçün vicdanlılıq modeli olmalıdır; Peşəkarlılıq və fərdi məsuliyyət - müəllim qanunvericiliklə təyin edilmiş vəzifəsini peşəkar səviyyədə icra etməlidir və peşəsinin tələblərini keyfiyyətlə həyata keçirilməsinə görə intizam məsuliyyəti daşıyır. Müəllim rol modeli olaraq, fəaliyyəti və şəxsi təcrübəsi ilə cəmiyyətin, təhsil verənlərə və təhsil müəssisələrinə güvənini artırmalı və gücləndirməlidir; Loyallıq - müəllim peşə fəaliyyətini icra

edərkən, müəllimlik adına xələl gətirəcək olan davranışlardan, habelə təhsil müəssisələri və digər dövlət orqanları, ictimai təşkilatlar( qeyri-qanuni fəaliyyətləri istisna olmaqla) haqqında etik olmayan, tənqidi fikir və çıxışlardan çəkinməlidir; Mədəni davranış- mədəni davranışın tərkib hissəsində, müəllimin, səmimi, diqqətli, yardımsevər, bacarıqlı, nəzakətli, təmkinli olmağı vacib sayılır. Eyni zamanda peşə fəaliyyəti zamanı müəllim, özünə qarşı olan tənqidlərə, təmkin və hörmətlə yanaşmalı, bundan doğru nəticə çıxarmağa çalışmalıdır. Qeyd olunan məsələlər, mədəni davranışın əsas tərkib hissələridir və müəllimin cəmiyyətdə nüfuzunu artırmağa xidmət edir; Qərərsizlik – müəllim fəaliyyəti zamanı, cinsiyyətindən, dinindən, irqindən və mənsub olduğu cəmiyyətdən asılı olmayaraq, heç bir təhsil alana fərq qoymamalı və qərərsiz olmalıdır. Müəllim öz vəzifəsindən, səlahiyyətlərindən kənar məsələlər üçün sui istifadə etməməlidir. İctimai etimad – müəllim peşə nüfuzunu daim qorumalı, müəllim adını uca tutmalıdır. Hər hansı anlaşılmazlıq və müəllim adına xələl gətirəcək vəziyyətin yarandığı halda, yaranmış stiuasiyanı aradan qaldırmağı, eyni zamanda ictimai etimadı bərpa etməyə səy göstərməlidir; Şəxslərin hüquq və azadlıqlarına, şərəf və ləyaqətinə hörmət – müəllim etik davranış qaydalarına və onların tələblərinə uyğun olaraq, təhsilverənlərin  şərəf və ləyaqətini qorumalı, işgüzar nüfuzunu ləkələyəcək qərarlar qəbul etməməli, müəllim, valideynlərin, təhsil alanların və əməkdaşlarının konfidensiallığını təmin etməlidir.

"Təhsilverənlərin etik davranış qaydaları" haqqında sənəddə qeyd olunan vacib məsələlərdən biridə "təhsilverənlərin xidməti davranışı" ilə bağlıdır. Qaydalarda göstərilir ki, müəllim peşə fəaliyyəti zamanı, təhsilalanları  vətənpərvərlik, azərbaycançılıq ruhunda yetişdirərək, dövlətin siyasətinin həyata keçirilməsinə və təhsilə aid proqramların təhsilalanlar tərəfindən öyrənilməsinə nail olmağı bacarmalıdır. Müasir dövrdə, müəllim nüfuzunu yüksək tutacaq bir sıra elementlər var ki, müəllim onları daim xatırlamalıdır. Belə ki, müəllim yenilikçi olmalı, peşəkarlıq səviyyəsini artırmalı, təhsilin keyfiyyətinin yüksəldilməsi və naliyyətlərin əldə olunması üçün təkliflərlə çıxış etməli, ziyalılıq nümunəsi göstərməlidir. Müəllim, haqq və

ədaləti təmin etməli, təhsilalanların şərəf və ləyaqətinə hörmətlə yanaşmalı, obyektiv və qərərsiz olmalıdır. Müəllim, əxlaq normalarına,  ictimai davranış qaydalarına əməl etməli, eyni zamanda əmək intizamına riayət etməlidir (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, 2024).

“Təhsilverənlərin etik davranış qaydaları” adlı sənəddə yer alan məsələlərdən biridə “Təhsilverənlərin xidməti fəaliyyətdən kənar davranışı” məsələsidir. Sənəddə “Təhsilverənlərin xidməti fəaliyyətdən kənar davranışı” deyərkən,  müəllimin şəxsi həyatında, təhsilalanlarla, kollektivlə, rəhbərliklə, valideyn və qanuni nümayəndələrlə münasibəti nəzərdə tutulur və bu münasibətlər etik davranış qaydaları kimi göstərilir. Müəllim təhsilalanlarla münasibəti zamanı, qarışlıqlı hörmətə əsaslanan ünsiyyət tərzi seçməli, təmkinli və humanist olmalı, öyrənənlərə qarşı tələbkar olmalı, hər bir öyrənənin rifahını düşünərək fəaliyyət göstərməlidir. Müəllim hər zaman davranış və hərəkətlərinə, nitqinə fikir verməli, təhsilalanların şərəf və ləyaqətini alçaldacaq davranışlardan və təhqiredici ifadələrdən uzaq durmalı, öz səlahiyyətlərindən sui-istifadə etməməlidir. Müəllimin həmkarları ilə münasibəti əməkdaşlıq və hörmət prinsipinə əsaslanmalıdır. Müəllim fəaliyyəti zamanı üzvü olduğu kollektivin nüfuzunun yüksəlməsinə səy göstərməli, müəllim kollektivinin fikir və düşüncələrinə, təkliflərinə hörmətlə yanaşmalı, müəllim həmkarlarına qarşı qeyri-etik olan davranışlardan  qaçınmalıdır. Təhsil müəssisəsinin rəhbəri ilə münasibəti zamanı, müəllim rəhbərlik tərəfindən ona verilən əmrin, tapşırığın qanun aktına zidd olmadığı hallarda yerinə yetirməyə borcludur. Valideyn və ya digər qanuni nümayəndələrlə müəllim mütamadi olaraq, əlaqədə olmalı, yaranan hər hansı mübahisə və münaqişələrin həllində kömək göstərməlidir. Müəllim valideyn və ya digər qanuni nümayəndələrlə münasibəti zamanı hörmətlə və nəzakətlə davranmalıdır. Müəllim, daim vətəndaşlıq borcunun yerinə yetirməli, öz şəxsiyyətini qorumalı, cəmiyyətin fəal üzvü olaraq, ictimaiyyətə daim fayda verməyə çalışmalıdır (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, 2024).

Qeyd edildiyi kimi Azərbaycan Respublikasında müəllimlik peşəsinə, müəllimə verilən dəyər və ondan gözlənilən olduqca çoxdur. Bu səbəbdəndir ki, dövlət siyasəti sənədlərində müəllimlərin işə qəbulundan, davranış qaydalarına qədər bütün proses diqqətlə yazılı formada hazırlanır. Müəllimlik peşəsindən, müəllimdən bu qədər gözlənilənin olması müəllim namizədləri üzərində də keyfiyyətyönümlü planlaşdırmaya ehtiyacı ortaya qoyur. Belə ki, Azərbaycanda kurikulumun icrasına başlanıldıqdan sonra, ali təhsil verən müəssisələrin kurikulumlarının müasir tələblərə cavab vermədiyi müşahidə olunmuşdur. Bu səbəb ilə, müəllim hazırlığını genişləndirmək məqsədi ilə, Elm və Təhsil Nazirliyinin 19 avqust 2009-cu il tarixli əmri ilə “Azərbaycan Respublikasında ali təhsilin bakalavr pilləsində ibtidai sinif müəllimlərinin hazırlığı üzrə çərçivə Kuriklumu” adlı proqram hazırlanmış, üç pilot ali təhsil müəssisəsində (Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Müəllimlər İnstitutu, Gəncə Dövlət Universiteti) tətbiq olunmağa başlamışdı. Yeni kurikulumla, tədris təcrübəsinin müddəti artırılaraq, 18 həftəyədək müddəti uzadılmışdır. Pedaqoji ixtisaslarda təhsil alan, müəllim namizədlərinin hazırlığını təmin etmək üçün tədris fənlərinin sayı artırılmış və “Təhsilin əsasları” adlı fənn tədris olunmağa başlanılmışdır (Süleymanova, 2010).

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 17 sentyabr 2014-cü il tarixli əmri ilə, müəllimlərin peşəsinə olan marağın artırılması və işlərinə daha da sevgi, diqqət və məsuliyyət ilə yanaşmasına imkan yaratmaq məqsədilə, 2014-2015-ci tədris ilindən başlayaraq, “Gələcəyin Müəllimi Təqaüdü” proqramı təsis olunmuşdur. Bu proqramın məqsədi, ali və orta ixtisas təhsilli müəssisələrdə pedaqoji sahədə ixtisaslaşmış və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislərin peşələrinə marağını artırmaq, iş şəraitini yaxşılaşdıraraq, onları müəllimlik karyerasına cəlb və təşviq etməkdir.

“Ümumi təhsil müəssisələrində fəaliyyət göstərən müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin aparılması Qaydaları” haqqında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 7 oktyabr 2015-ci il tarixli əmri təsdiq olunmuşdur. Müəllimlərin

bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsində məqsəd, onların tədrisdə hazırkı səriştə səviyyəsini qiymətləndirmək, müəllimlərin əlavə təlimə və ya dəstəyə ehtiyacı ola biləcək sahələri müəyyən etməkdir. Diaqnostik qiymətləndirmə, müəllimlərin effektiv təlimat verməsini və şagirdlərin ehtiyaclarını ödəməsini təmin etməyə, eləcə də təhsilin ümumi keyfiyyətini yaxşılaşdırmağa xidmət edir. Qiymətləndirmə müəllimlərin güclü və zəif tərəflərini müəyyən etməyə və onların peşəkar inkişafı üçün plan hazırlamağa kömək edir.

Azərbaycan Respublikası Elm və təhsil nazirinin 2020-ci il 30 aprel tarixli 155 nömrəli əmri ilə "Təhsilverənlərin Sertifikatlaşdırılması Şurasının yaradılması" haqqında qərar təsdiq edilmişdir. Bu qərarın məqsədi, dövlət ümumi təhsil müəssisələrində (digər dövlət təhsil müəssisələrindəki təhsilverənlər daxil olmaqla) pedaqoji və idarəetmə fəaliyyəti ilə məşğul olan ali və orta ixtisas təhsilinə malik təhsilverənlərin sertifikatlaşdırılmaasının təşkili və idarə edilməsidir. Bu sertifikatlaşdırma nəticəsində, təhsilverənlərin pedaqoji və idarəetmə bacarıqları və bilikləri qiymətləndirilərək müvafiq sertifikatlar verilir. Bu sertifikatlar, təhsilverənlərin pedaqoji və idarəetmə fəaliyyətlərində daha yüksək səviyyəyə qalxmaq, müvafiq qaydalar və standartlar əsasında çalışmaq imkanlarını artıracaqdır (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, 2020).

Azərbaycan Respublikasında təhsil sahəsindəki siyasətə nəzər yetirdikdə müəllimlərin peşəkar inkişafı üçün islahatlar aparıldığı görülməkdədir. Bu islahatlar xüsusi ilə müəllim peşəsinə yiyələnmiş şəxslərin fəaliyyətinin təşkili ilə əlaqəli olduğu deyilə bilər. Eyni zamanda gənc müəllimlər və peşə fəaliyyətində olan müəllimlər üçün bilik, bacarıq və davranış istiqamətində keyfiyyətyönümlü fəaliyyətləri əhatə edir. Bu proqramların xüsusi ilə xarici təcrübələrin mühüm yeri vardır. Belə ki, hazırlanan sənədlərdə istinad xüsusi ilə inkişaf etmiş və ya yüksək təhsil nailiyyəti göstəricisi olan inkişaf etməkdə olan ölkələrin təcrübələrinə istinad edilmişdir.

## 2.3.İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə müəllim hazırlığı proqramları

Keyfiyyətli müəllimlərə ehtiyac, inkişaf etmiş ölkələr başda olmaqla, bütün dünyada mühüm məsələdir. Bir çox mili və beynəlxalq təşkilatlar bu mövzuda əhatəli tədqiqatlar aparır (UNESCO 2012). Bunun səbəbi odur ki, müəllimin keyfiyyəti və uğuru artdıqca, təhsil sisteminin keyfiyyəti və uğuru da artır. Ölkələrin hər sahədə inkişafı təhsilin keyfiyyəti ilə, təhsilin keyfiyyəti isə müəllimlərin keyfiyyəti ilə birbaşa əlaqəlidir. Şagird performansı baxımından yüksək müvəffəqiyyət qazanan ölkələrdə təhsil sistemlərinin ən əsas ümumi xüsusiyyətinin keyfiyyətli müəllimlər olduğu müəyyən edilmişdir (Barber & Mourshed, 2007). Müəllimin keyfiyyəti isə onun yetişdirilməsindən asılıdır. Ölkələrin ehtiyac duyduğu keyfiyyətli müəllimləri yetişdirmək üçün müxtəlif ölkələrdəki müəllim hazırlığı sistemlərinin daim qiymətləndirilməsi və bu qiymətləndirməyə əsasən müəllim hazırlığı proqramlarının inkişaf etdirilməsi son dərəcə əhəmiyyətlidir. Bu baxımdan, keyfiyyətli müəllim hazırlamaq səyləri Azərbaycan və bütün dünya ölkələrində əhəmiyyətli bir məsələ kimi qarşımıza çıxır. Bu səbəblə konseptual çərçivə fəslində ölkələrdən nümunələr verilmişdir.

### 2.3.1.Finlandiya

Finlandiyada, pedaqoji ixtisaslarda oxumaq üçün, vacib tələb orta məktəbi bitirmək və ali məktəbə qəbul imtahanında uğur qazanmaqdır. Bu nəticələri əldə etdikdən sonra, şagird universitetlərə müraciət edə bilər. Pedaqoji ixtisaslarda təhsil almaq istəyən tələbələr, hər universitetin özünün müəyyən etdiyi yazılı imtahan, qabiliyyət imtahanı, fərdi müsahibə, qrup müzakirələri kimi seçim mərhələlərdən keçirlər (Sahlberg, 2018). Yazılı imtahanda, abituriyentlərin informasiyanı araşdırmaq, tənqidi düşünmək və şərh etmək, müvafiq və qeyri-müvafiq məlumatları ayırmaq, öz fikirlərini formalaşdırmaq və sintez etmək kimi bacarıqları ölçülür. Müsahibə mərhələsində, namizədin şəxsi xüsusiyyətləri, öyrənmə və inkişaf səriştəsi,

təlim və tədrisə eyni zamanda, müəllim hazırlığı proqramına uyğunluğu qiymətləndirilir. Son mərhələdə isə, namizədin sosial aspektləri, nitqi, təqdim etmə və idarəetmə bacarıqları, dərs keçmə kimi qabiliyyətləri yoxlanılır (Malaty, 2007). Finlandiyada müəllim hazırlığı proqramlarında əsas məqam, təcrübə və nəzəriyyənin vəhdətinin tam təmin edilməsi və nəzəri biliklərin tətbiqi sahəsinin yaradılmasıdır (Yeşil, 2016). Ölkədə, ibtidai və orta təhsil səviyyələrində hər bir pedaqoji ixtisas üçün təcrübə məktəbi mövcuddur. Bu təcrübə məktəbləri universitet şəhərciklərində yerləşir. Finlandiyanın müəllim hazırlığı sistemində təcrübə məktəbləri mühüm rol oynayır.

Finlandiyada pedaqoji ixtisaslarda, müəllim hazırlığı proqramları 4 il müddətində tədris olunur. Fakültədə tədris olunan kurslar müəllim namizədlərini təcrübə keçməyə, müşahidə aparmağa və axtarışa yönəldir. Bundan əlavə, effektiv sinif idarəçiliyi üçün tələb olunan tədris üsulları ətraflı izah edilir və tələbələr tədris üsullarını inkişaf etdirməyə həvəsləndirilir. Universitetdən məzun olduqda isə magistratura təhsili almaq vacibdir. Müəllim seçimində magistratura təhsili, müəllimlik qabiliyyətlərinə malik olma kimi məsələlər nəzərə alınır. Finlandiyada, təhsil fakültələrinin əsas məqsədi müasir dövrün vacib tələbi olan tədqiqatçı müəllimlər hazırlamaqdır (Çınar & Doğan, 2019).

### 2.3.2.Cənubi Koreya

Cənubi Koreyada, müəllim peşəsinə sahib olmaq istəyən abituriyentlər ilk öncə ali məktəbə qəbul imtahanından keçməlidirlər. Bundan əlavə, məzun olduqları məktəbdən referans məktubu tələb olunur və bu məktub sinif rəhbəri tərəfindən göndərilməlidir. Eyni zamanda, müəllim namizədlərinin seçimində, məktəbdə əldə olunan müvəffəqiyyət balı da mühüm meyardır. Müəllimlik peşəsinə yiyələnmək istəyən abituriyentlər təhsil almaq istədikləri ixtisası seçərkən müsahibə mərhələsindən də keçməlidirlər. Müəllimlik peşəsinə namizəd olan abituriyentlər arasında peşəyə münasibətini öyrənmək üçün sorğu keçirilir və seçim zamanı

sorğunun nəticəsi diqqətə alınır. Müəllim namizədləri 4 illik təhsilini bitirdikdən sonra diplomlarını ala bilirlər. Lakin, diplom müəllim kimi fəaliyyətə başlamaq üçün kifayət etmir. Namizədlər, 3 illik peşə təcrübəsi və 15 saatlıq ixtisas artırma təlimindən sonra birinci dərəcəli sertifikat əldə edə bilirlər və həmin sertifikatı alan namizədlər 2 həftəlik təlim keçirlər. Təlim, ixtisasla bağlı araşdırmalar aparmaq, sinif rəhbərliyi, sinfi idarə etmək, dərs demək, məktəbin fəaliyyəti ilə tanış olmaq kimi məsələləri əhatə edir. Müəllim namizədləri, fəaliyyətə başlamaqla yanaşı 6 ay boyunca əlavə təhsil almaq məcburiyyətindədirlər. Bu təlimin məzmunu sinif idarəçiliyi, tədris təcrübələri və qiymətləndirmə ilə bağlı olur (National Centre for Entrepreneurship in Education, 2015). Cənubi Koreyada pedaqoji ixtisaslarda oxuyan tələbələrə, təhsil aldıqları müddətdə, humanitar elmlər, sosial elmlər, təbiət elmləri, bədən tərbiyəsi, dil və ədəbiyyat, ümumi pedaqogika, təhsil psixologiyası, təhsil sosiologiyası, təhsil fəlsəfəsi, məktəb və sinfin idarə edilməsi kimi kurslar tədris olunur. Müəllim namizədlərinə bakalavr təhsili müddətində cəmi 9 həftə tədris təcrübəsi üçün vaxt verilir (Coşkun, 2021).

### 2.3.3.Almaniya

Almaniyada şagirdlər orta məktəbi bitirdikdən sonra ali məktəbə qəbul imtahanında iştirak edib, lazımi qədər bal toplaya bilərlərsə, pedaqoji ixtisasları olan universitetlərə müraciət edə bilərlər. Ölkədə, müəllimlik peşəsinə yiyələnmək istəyən şəxslər həm yazılı, həm də şifahi imtahanda iştirak edib, müsbət nəticə əldə edərsə, müəllimlik ixtisasında təhsil almaq üçün haqq qazanırlar. Almaniyada müəllim hazırlığı 2 mərhələni əhatə edir: “nəzəri” və “tədris təcrübəsi” Pedaqoji ixtisaslarda təhsilin müddəti 3-4 il nəzəri, 2 il praktika olmaqla, 5-6 ilə tamamlanır. Almaniyada, müəllimlik ixtisası yalnız, ixtisas bilikləri, pedaqogika və tədris təcrübəsindən ibarət deyil, bu kurslarla yanaşı, dil, incəsənət və idman sahələrində də bir çox kurslar keçirlər (Yaman, 2018).

Müəllimlik ixtisasında oxuyan tələbələr, təhsillərinin ilk illərində, ancaq ixtisaslarının nəzəri hissəsini öyrənir, universitetin son 2 ilində isə tədris təcrübəsi keçirlər. Nəzəri mərhələnin tətbiqi zamanı pedaqogika, ixtisas bilikləri və məktəb təcrübəsinə aid fənlər tədris olunur. Nəzəri hissəni tamamlayan müəllim namizədləri I dövlət imtahanı verməlidir. Bu imtahandan keçə bilən namizədlər tədris təcrübəsində iştirak edə bilərlər. Tədris təcrübəsi zamanı namizədlər təcrübəli müəllimlərin dərslərində iştirak edərək dərsin gedişatını izləyir, dərs forması hazırlayıb təqdim edir və sinfi idarə edirlər. Bu zamanı əsas məqsəd, müəllim namizədlərinin, ixtisaslarına dair peşəkar bilik və bacarıqlar qazanılmasını təmin etməkdir (Arslan & Vezne, 2021).

## 2.3.4. Amerika Birləşmiş Ştatları (ABŞ)

ABŞ-də müəllim ola bilmək üçün orta məktəbdən məzun olmaq ilkin şərtdir və məzun olmaqla yanaşı orta məktəbdən buraxılış balının da əhəmiyyəti böyükdür. Abituriyentlərin, müəllimlik peşəsinə yiyələnmək üçün təhsil almaq istədikləri universitet məzun olduqları məktəbdən referans məktubu tələb edir. Bunlarla yanaşı, pedaqoji hazırlıq həyata keçirən universitetlər, müəllimlik peşəsi üçün istənilən tələblərin, müəllim olmaq üçün müraciət edən şagirdlərdə olub olmamasını müsahibə yolu ilə yoxlayırlar (Abanoz, 2021). Pedaqoji ixtisaslarda təhsil alan tələbələrə hər semestrin sonunda bilik və bacarıqlarını yoxlamaq üçün imtahan keçirilir. Bu imtahanlardan uğurla keçən tələbələr məzun ola bilirlər. ABŞ-də müəllimlik proqramı 2+3 il davam edir. İlk iki il müəllim namizədləri dil, ədəbiyyat fakültəsinin dərslərində məcburi iştirak etməlidirlər. Tələbələr, müəllimlik diplomu almaq üçün 120 kredit dərsləri tamamlamalıdırlar. Digər ölkələrlə müqayisədə, ABŞ-də pedaqoji ixtisaslarda tədris olunan dərslərin və tədris təcrübəsinin yükü daha çoxdur. Digər diqqət çəkən nüanslardan biridə, müəllimlərin fəaliyyətə başladıqlarından 10 il müddətində magistr təhsili almaq

məcburiyyətində olmalarıdır. ABŞ-də praktik dərslərə çox diqqət edilir. Müəllim namizədlərinə bakalavr təhsillərinin 3-cü semestrindən başlayaraq hər semestrdə 1 kredit tədris təcrübəsi kursu tətbiq olunur və hansı sahə üzrə müəllimlik edəcəksə, o sahəyə aid, dərslər, tədris təcrübəsi kurslarında iştirak etmək məcburidir (Coşkun, 2021).

## 2.3.5.Türkiyə

Türkiyədə müəllim olmaq üçün vacib tələblərdən biri, orta məktəb attestatının olmasıdır. Pedaqoji ixtisaslarda təhsil almaq istəyən şəxslər ilk öncə dövlət tərəfindən təşkil olunan qəbul imtahanında iştirak etməlidirlər. Daha sonra abituriyentlər attestat balı, imtahandakı nəticələri və istədikləri ixtisasa görə universitet seçirlər. Türkiyədə pedaqoji ixtisaslarda, müəllim hazırlığı 4 il müddətində həyata keçirilir. Hər bir müəllim namizədi 6-cı semestrdən başlayaraq, həftədə 1 gün məktəblərdə ixtisasına uyğun olaraq tədris təcrübəsi keçir. Tədris təcrübəsi, planlaşdırma, yoxlama, araşdırma, iştirak, təhlil etmə, nəzarət, qiymətləndirmə, inkişaf kimi proseslərdən ibarətdir. Pedaqoji ixtisaslarda təhsil alan tələbələr 4 il müddətində 134 saat nəzəri, 44 saat tədris təcrübəsi olmaqla cəmi 178 saat, 240 kredit dərs keçirlər (Çınar & Doğan, 2019).

Türkiyədə müəllim hazırlığı həyata keçirən təhsil qurumları Təhsil fakültələri və Texniki Təhsil Fakültələri olaraq 2 yerə bölünür. Təhsil fakültələrində müəllimlik peşəsinə aid bakalavr və magistr proqramları tətbiq olunur. Müəllimlik peşəsi üçün lazım olan pedaqoji bilik və bacarıq, sinif idarəetməsi, tədris metodları kimi mövzular bu fakültələrdə tədris olunur. Nəzəri dərslərlə yanaşı, praktik dərslərdə təhsil fakültəsi tərəfindən həyata keçirilir. Texniki təhsil fakültələri isə texniki və peşə sahələrində müəllim hazırlamağı hədəfləyir. Peşə məktəblərində və peşə təhsilli müəssisələrdə müəllimlik edəcək namizədlər bu fakültələrdə

təhsil alırlar. Hər iki təhsil fakültəsi müəllim namizədlərini, təhsil prosesinin fərqli aspektləri ilə tanış edərək, onları iş dünyasına və müəllimlik fəaliyyətinə hazırlamağı hədəfləyir. Bu qurumlar müəllim namizədlərinin peşəkar inkişafını dəstəkləmək və keyfiyyətli bir müəllim ştatı yaratmaq üçün müxtəlif akademik və tətbiqi proqramlar təklif edirlər (Yeşil, 2016).

### 2.3.6. Sinqapur

Sinqapurda müəllimlik peşəsi ən çox üstünlük verilən peşə olduğundan, müəllimlərin seçimində müxtəlif qiymətləndirmə üsullarında istifadə edirlər (Aksoy & Gözütok, 2014). Sinqapurda müəllim olmaq üçün müraciət edən ən uğurlu namizədlərə üstünlük verir. Pedaqoji ixtisaslara seçim zamanı müsbət qiymətlərlə orta məktəbi bitirmiş namizədlərin nəzərə alınması vacibdir. Bundan əlavə, peşəkarlığa meylli və effektiv ünsiyyət bacarığı olan namizədlərə üstünlük verilir. Namizədlərin seçimi zamanı ingilis dil bacarıqlarının olmasına diqqət yetirilir. Müəllim olmaq üçün müraciət edən nazmizədlər CV-lərinin yoxlanılması, ümumi bilik testlərinin tətbiqi, müsahibə kimi mərhələlərdən keçirlər(Bakioğlu & Göçmen, 2014).

Sinqapurda, müəllimlik peşəsinə həvəsi artırmaq və istedadlı şəxsləri bu peşəyə həvəsləndirmək üçün seçilən müəllim namizədlərinə dövlət, təhsillərinin ilk iki ili üçün maaş verir (Aksoy & Gözütok, 2014). Müəllim namizədlərinə maaş verilməsində məqsəd, onların təhsil aldıqları müddətdə xərclərini qarşılaya bilməsini təmin etmək və diqqəti yalnız təhsilinə yönəltməkdir. Dövlətin müəllim namizədlərinə verdiyi bu imkandan, müəllim hazırlığı prosesinə nə qədər önəm verdiyi görmək olar (Orakçı, 2015). Sinqapur müəllim hazırlığı proqramlarına, müəllimlərin şəxsi inkişafını təmin etmək üçün təşkil edilən "Meranti Layihəsi" adlı təlim proqramı da daxildir. Bu proqramın məqsədi, müəllimlərə öz bacarıqlarını kəşf etməyə, müəllimlik peşəsinin çətinliklərinin öhdəsindən gəlmək vərdişlərini qazandırmaq, müəllimlik fəaliyyətini təmin etməkdir. Bu proqram vasitəsi ilə müəllim namizədləri təcrübəli müəllimlərlə bir araya gətirilir və onların təcrübələrindən yararlanılır. Sinqapur təhsil

sistemində, müəllim namizədlərinin təcrübə dərslərində iştirak etməkləri məcburidir. Namizədlər, Amerika və Avropa universitetlərində müqavilə ilə beş həftəlik beynəlxalq təcrübə keçmək imkanı əldə edirlər. Bu təcrübə onlara müxtəlif tədris metodları və mədəniyyətləri haqqında dəyərli fikirlər əldə etməyə, həmçinin dil bacarıqlarını təkmilləşdirməyə və qlobal təhsil haqqında anlayışlarını genişləndirməyə imkan verir. Bu proqram vasitəsilə müəllim namizədləri qloballaşan dünyada uğurlu pedaqoq olmaq üçün lazımi bacarıq və bilikləri inkişaf etdirə bilirlər (Yahaya, 2018).

### 2.3.7. Kanada

Kanada da, universitetlərə qəbul bəzi ölkələrdə olduğu kimi, test üsulu ilə aparılmır. Hər bir universitet qəbul şərtlərini müəyyən edir və hər bir müraciəti ayrılıqda dəyərləndirir. Müraciətlərin qiymətləndirilməsi zamanı, abituriyentlərin akademik və sosial nailiyyətləri, attestat qiymətləri, imtahan balları, ictimai və könüllü fəaliyyətlərdə iştirakları nəzərə alınır. Kanada da, "Müəllim hazırlığı proqramı" müəllim təhsilinin ilk pilləsi kimi qəbul edilməkdədir və müəllim təhsili üçün fundamental biliklərin, ixtisas, kurrikulum, ümumi pedaqoji və psixoloji biliklər kimi müəyyən edilmişdir (Coşkun, 2021). Kanada da, müəllim namizədlərinin öz peşələrinə yiyələnmələri üçün, dörd əsas proqram mövcuddur. Bu proqramlar, ardıcıl, sinxron, magistratura və inteqrasiya olunmuş proqramlar kimi qeyd edə bilərik. Ardıcıl proqram; bu proqram ilə müəllim olmaq istəyən namizədlər orta məktəbi bitirməlidirlər. Təhsil fakültəsindən asılı olaraq, tələbələr bakalavr pilləsindən əlavə ikinci bakalavr dərəcəsi alırlar. Proqramın müddəti 1-2 il arasında dəyişir. Sinxron proqram; sinxron proqramın müddəti 4-6 il arasında dəyişir. Bu proqramı bitirən namizədlərin iki diplomu olur. Biri təhsil fakültəsinin diplomu olduğu halda, digəri hər hansı sahə ilə bağlı olur. Magistratura proqramı; bu proqramda təhsil alan müəllim namizədləri bakalavr dərəcəsi ilə yanaşı magistr dərəcəsi də alırlar. Proqramın müddəti 2 ildir və tədris 2 müxtəlif üsulda sinif işi və tədris təcrübəsi şəklində tətbiq olunur. İnteqrasiya edilmiş proqram; bu modeldə təhsil fakültəsinin

tələbələri təhsil elmləri üzrə bakalavr dərəcəsi alırlar. Bakalavr təhsilinin müddəti 3-4 ili əhatə edir və başqa təhsil tələb olunmur. Çünki pedaqoji elmlər sahəsində müəllim namizədlərinin bakalavr təhsili geniş ixtisas biliklərini əhatə edir (Coşkun, 2021). Pedaqoji ixtisaslarda təhsil alan tələbələrə, ixtisas bilikləri, pedaqogika və psixologiya, planlama, ölçmə və dəyərləndirmə sahələrində biliklər öyrədilir. Kanada da, müəllimlik ixtisasında təhsil almaq istəyən tələbələr üçün ingilis dilini bilmək şərtdir. Müəllim namizədləri müəllim olmaq üçün rəqabətli təhsil sistemindən keçirlər. Müəllimlik ixtisasında məzun olduqdan sonra müəllimlərə birinci il işə qəbul proqramı təklif olunur və bu proqramda yeni müəllimlərə azaldılmış tədris yükü verilir və onlara rəhbərlik etmək üçün təcrübəli mentor müəllim təyin olunur. Mentor müəllimlər onların peşəkar inkişafına kömək edir və fəaliyyətləri ilin sonunda qiymətləndirilir (Gurbetoğlu, 2019).

### 2.3.8. İngiltərə

İngiltərədə müəllim olmaq üçün ümumi təhsil haqqında attestat tələb olunur. Attestat almaq üçün keçirilən imtahandan əsas fənlərdən C və ya yuxarı qiymət alan tələbələr pedaqoji ixtisaslara qəbul olmaq üçün təşkil olunmuş müsahibə mərhələsində iştirak etmək hüququ qazanırlar. İngiltərədə müəllim olmaq istəyən hər bir abituriyent, ilk növbədə yazılı imtahan verməlidir. Yazılı imtahanın məzmunu riyaziyyat və ana dilini əhatə edir. Bu imtahanda uğur qazanan namizəd təhsil fakültələri tərəfindən təşkil olunan şifahi müsahibə imtahanından da uğur qazanmalıdır. Təhsil fakültələri professor-müəllim heyəti və praktiki müəllimlərdən ibarət komissiya vasitəsilə seçim prosesini həyata keçirir və bu zaman namizədlərin, müəllimlik peşəsinə nə qədər həvəsli və maraqlı olduğunu, müəllimlik peşəsinin əhəmiyyətini nə qədər anladığını, namizədlərin bu peşə üçün nə qədər uyğun olduğunu müəyyən edəcək suallar verilir. Pedaqoji ixtisaslardan məzun olan namizədin ixtisası üzrə fəaliyyətə başlaması üçün daha bir

imtahan tələbi var. Müəllim namizəd, riyaziyyat və ingilis dili fənləri ilə yanaşı, informasiya texnologiyaları ilə bağlı sahələr üzrə test imtahanlarından tələb olunan qiymətləri almalıdır.

İngiltərədə təhsil fakültələri müxtəlif tədris metodlarından istifadə edir. Bu üsulları iki kateqoriyaya bölmək olar. Birinci kateqoriya həm nəzəri, həm də praktiki kurslar təklif edən 4 illik müəllim hazırlığı proqramıdır. Bunlar: Bachelor of Education (BED): Bu proqram ibtidai sinif müəllimi hazırlamaq üçündür. BED proqramında təhsil almaq üçün riyaziyyat və ingilis dili C və ya ondan yuxarıda qiymət almaq lazımdır. BA/BSc (Bachelor of Arts/Science with Qualified Teacher Status): Fənn və sosial elmlər sahəsində müəllim olmaq üçün təklif olunan proqramdır. Eyni zamanda digər sahələrdə də ixtisaslaşdırılmış təlimlər verir. 3-4 il müddətini əhatə edən bu proqram ingilis dili və riyaziyyat fənlərində C və ondan yuxarı qiymətlər almağı tələb edir (Kilimci, 2006). İkinci kateqoriya bir illik, müxtəlif bakalavr proqramlarını bitirmiş tələbələr üçün nəzərdə tutulmuş, formalaşma proqramlarından ibarətdir. Bu proqram, müəllimlik təhsili almayan, digər şəxsləri müəllim olmaq üçün hazırlayır. Bu proqramlar universitet və məktəb əməkdaşlığı əsasında həyata keçirilir. İngiltərədə tədris təcrübəsi, təhsil müddətinin başladığı ildən etibarən, hər il ayrı-ayrı məktəblərdə, cəmi 21 həftə tətbiq olunmaqdadır. İngiltərədə, müəllimlik ixtisasını bitirən tələbələrin peşə ilə bağlı hansı xüsusiyyətlərə sahib olduğunu əks etdirən məlumatların yer aldığı “peşəyə giriş” profilli sənəd təqdim olunur (Coşkun,2021).

### 2.3.9. Azərbaycan

Azərbaycanda müəllim olmaq istəyən şəxslərin orta məktəb və lisey, kollec təhsillərini başa vurumuş olmaları tələb olunur. Daha sonra, Dövlət imtahan mərkəzi tərəfindən təşkil olunan imtahandan iştirak edərək, müəyyən olunmuş fənlərdən bal toplayıb, istədikləri müəllimlik ixtisasının şərtlərinə uyğun olaraq həmin ixtisasa qəbul ola bilirlər. Təhsil fakültələrində müəllim namizədləri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

tərəfindən təsdiq olunmuş təhsil proqramları əsasında təhsil alırlar. Azərbaycan da müəllim hazırlığı proqramları əsasən psixoloji və pedaqoji fənlərdən ibarətdir ( Üzeirli & Kılıçoğlu, 2021). Fənlər "seçmə" və "məcburi" fənlər olaraq 2 yerə bölünür. Pedaqoji ixtisaslarda təhsil alan müəllim namizədləri ixtisaslarına uyğun olaraq, sosial elmlər, humanitar elmlər və texnologiya elmlərinə aid olan fənlər tədris olunur. Bu zaman məqsəd tələbələrin sosial elmlər, psixologiya, tarix, müasir texnologiya kimi sahələrdə ümumi anlayışa, əsas bilgilərə sahib olmasını təmin etməkdir. Bu fənlər müəllim hazırlığı proqramının əsasını təşkil edir və məcburi dərslər olaraq tədris olunur. Seçmə fənlər isə namizədlərin öz maraqlarına və bacarıqlarına görə seçə biləcəyi dərslərdir (Bakalavriat Səviyyəsinin (Əsas (Baza) Ali Tibb Təhsilinin İxtisas Üzrə Təhsil Proqramı, 2020). Müəllim namizədləri 4 illik təhsilin, 3 və 4-cü illərində hər ildə 14 həftə olmaqla tədris təcrübəsinə cəlb olunurlar. Tədris təcrübəsi zamanı, praktiki təlimlər keçirilir, bu da müəllim hazırlığının ən azı 18 faizini əhatə edir. Azərbaycanda 2014-cü ildən Təhsil Nazirliyi tərəfindən yüksək bal toplayaraq müəllimlik ixtisasını seçən tələbələrə həvəsləndirmək məqsədilə "Gələcəyin müəllimi" proqramı həyata keçirilir. Bu məqsədlə ali məktəblərə qəbul imtahanında 500-dən yuxarı bal toplayan və müəllimlik ixtisasını 1-ci və ya 2-ci yer seçən ilk 300 tələbəyə "Gələcəyin müəllimi" təqaüdü verilir (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2016). Müəllim namizədləri bakalavr təhsillərini başa vurduqdan sonra əgər istəsələr magistr təhsili ala bilirlər. Ümumtəhsil məktəblərində müəllim kimi işləmək üçün magistr təhsili almaq məcburiyyəti yoxdur.

## 2.4. Pedaqoji ixtisaslarda təhsil alan tələbələrin müəllimlik peşəsinə münasibəti ilə əlaqəli yerli və beynəlxalq ədəbiyyatın təhlili

Müəllimlik peşəsi, müəllimlik peşəsinə dair münasibətlər beynəlxalq elmi ədəbiyyatlarda aktual mövzu olaraq araşdırılmışdır. Belə ki, bu mövzu ilə bağlı araşdırma

aparılarkən, çox sayda tədqiqat işinə rast gəlinmişdir. Bu sahədəki, araşdırmaların sayının çox olması müəllimlik peşəsinin cəmiyyətin və təhsil sisteminin inkişafında mühüm rolu olması ilə bağlıdır.

Efe və digərləri (2012), müəllim namizədlərinin müəllimlik ixtisasına münasibəti, ixtisaslar üzrə araşdırmışdır. Datanın təhlili zamanı, müəllimlik ixtisasında oxuyan qız tələbələrin oğlan tələbələrə nisbətən müəllimlik peşəsinə münasibəti daha müsbət, sosial elmlərdə oxuyan tələbələrin, təbiət elmləri ixtisasında oxuyan tələbələrə nisbətən müəllimlik peşəsinə münasibəti müsbət olduğu qənaətinə gəlinmişdir. Həmçinin ixtisas seçimində müəllimlik ixtisasına istəyərək seçən tələbələrin digər tələblərə nisbətən bu peşəyə münasibətinin müsbət olduğu görünmüşdür.

Alkhateeb (2013) araşdırmasında, Qətərdə, pedaqoji ixtisaslarda oxuyan müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətlərinin akademik nailiyyətlərinə görə fərq göstərib göstərmədiyi  tədqiq etmişdir. Datanın təhlili zamanı, məlum olmuşdur ki, tələbələrin müəllimlik peşəsinə münasibəti, onların akademik nailiyyətlərinə görə fərqlilik göstərir.

Müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətlərini öyrənmək üçün digər araşdırma, Hindistanda, Parvez və Shakir (2013) tərəfindən aparılmışdır. Müəlliflər, Hindistanda özəl və dövlət ali təhsil müəssisələrində təhsil alan müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətlərini din və cinsiyyət dəyişkənləri baxımından fərqlilik göstərib, göstərmədiyi araşdırmışlar. Araşdırmanın nəticəsinə görə, özəl və dövlət ali təhsil müəssisələrində təhsil alan tələbələrin müəllimlik peşəsinə münasibətləri arasında ciddi fərqlər olduğunu, məlum olmuşdur. Cinsiyyət və din  faktorlarının  isə müəllimlik peşəsinə münasibət də fərqlilik göstərmədiyi məlum olmuşdur.

Ekici (2014), araşdırmasında müəllim hazırlığında oxuyan tələbələrin müəllimlik ixtisasına münasibətini müxtəlif dəyişənlər əsasında araşdırmışdır. Araşdırma nəticəsində, tələbələrin müəllimlik peşəsinə münasibətinin cinsiyyət, məzun olduqları məktəb və yaşlarına

görə əhəmiyyətli dərəcədə fərqlilik göstərmədiyi, lakin müəllim namizədlərinin öz peşələrinə münasibətinin, müəllimlik peşəsini seçmə səbəblərinə, təhsil aldıqları müəllimlik proqramına, ailə vəziyyətlərinə, Türkiyədə müəllimlik peşəsinin hörmətli peşə kimi qəbul edilib-edilməməsindən asılı olaraq fərqlilik göstərdiyi müəyyən edilmişdir.

Egwu (2015) tərəfindən, Nigeriyada Abakaliki Ebonyi Dövlət Universitetinin Təhsil fakültəsinin tələbələrin müəllimlik peşəsinə münasibətini öyrənmək məqsədilə tədqiqat aparılıb. Nəticə olaraq, müəllimlərin əmək haqqının az olması və valideynlərin ixtisas seçimində rolunun, tələbələrin bu peşəyə olan münasibətinə təsir etdiyi məlum olmuşdur.

Kadir və digərləri (2015) "Sosial elmlər" fakültəsində oxuyan müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətləri, onların cinsiyyətinə, ixtisas seçmə səbəblərinə, seçdikləri universitetə , oxuduqları fakültəyə, valideynlərin maddi durumuna, vəzifəsinə, yaşadıqları yerə görə fərqlilik göstərib göstərmədiyi tədqiq ediblər. Araşdırmanın nəticəsində, müəllim namizədlərinin peşələrinə münasibəti, onların cinsiyyətinə, ixtisas seçiminə, oxuduqları fakültəyə görə əhəmiyyətli dərəcədə fərq göstərdiyini, valideynlərin maddi durumuna, yaşadıqları yer dəyişkənlərinə görə önəmli fərq olmadığı məlum olmuşdur.

Muhammet və Sarigöz (2018) Müəllim namizədlərinin öz peşələrinə münasibətinin onların ailəsinin maddi durumuna, cinsiyyətlərinə, yaşayış yerlərininə akademik nailiyyətlərinə görə fərqlilik göstərib, göstərmədiyini araşdırmışdır. Araşdırmanın nəticəsində, ailənin maddi durumunun və yaşayış yerlərinin müəllimlik ixtisasında oxuyan tələbələrin müəllimlik peşəsinə münasibətinə təsiri olmadığının lakin kişi tələbələrin qadın tələbələrə nisbətən, peşəyə marağının daha az olduğu və peşəyə münasibətin akademik nailiyyət göstəricilərində fərqlilik yaratdığı məlum olmuşdur.

Müəllim namizədlərinin, peşələrinə münasibətlərinin onların cinsiyyəti, oxuduqları universitet və keçdikləri fənlərə görə fərqlilik göstərib , göstərmədiyinin araşdırıldığı bir başqa tədqiqat Pakistanda Akhtar və yoldaşları (2022) tərəfindən həyata keçirilmişdir. Araşdırmanın

nəticələri göstərdi ki, cinsiyyət və universitet dəyişkəni baxımından, müəllimlik ixtisasında oxuyan tələbələrin müəllimlik peşəsinə münasibətində ciddi fərq yoxdur.

Balaban və Arslan (2022) müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətlərini, onların yaş, cinsiyyət, oxuduqları şəhərlər, təhsil aldıqları ixtisaslar və müəllimlik peşəsinə hörmət və münasibət dəyişkənlərinə görə araşdırıblar. Datanın təhlili zamanı, yaş ,cinsiyyət, oxuduqları şəhərlər, təhsil aldıqları ixtisaslar , müəllimlik peşəsinə hörmət və münasibət dəyişkənlərinə görə, müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətində statistik olaraq əhəmiyyətli fərqliliyə rast gəlinməmişdir.

Balcı (2023), müəllim namizədlərinin akademik motivasiyaları ilə müəllimlik peşəsinə münasibətləri arasında əlaqənin olub olmadığını və bu münasibətin cinsiyyətə, məzun olduğu ixtisasa, bitirdikləri məktəb növünə görə fərqlilik göstərib göstərmədiyini tədqiq etmişdir. Bu araşdırmada əldə edilən nəticələr görə, müəllim namizədlərinin müəllimlik peşəsinə münasibəti ilə onların akademik motivasiyaları arasında əlaqənin olduğu, cinsiyyətə, məzun olduqları ixtisasa, bitirdikləri məktəb növlərinə görə fərqlilik göstərdiyi aşkarlanmışdır.

Azərbaycan da aparılan tədqiqatlar təhlil edildiyi zaman müəllim namizədlərin iştirakı ilə həyata keçirilən tədqiqatlara deyil, daha çox müəllimlik peşəsi ilə əlaqəli tədqiqatlara rast gəlinir. Həmin tədqiqatlarda, müəllimin pedaqoji fəaliyyəti, müəllimin cəmiyyətdə rolu və yeri, müəllimin mənəvi siması kimi məsələlərə toxunulmuşdur (Paşayev, 2017). Bunlarla yanaşı, bəzi məqalələrdə pedaqoji ixtisaslarda təhsil alan tələbələrin motivasiyası, peşə səriştəsi, onların təhsilində düzgün forma və metodların seçilməsi kimi, mövzulara da yer verilmişdir (Verdiyeva, 2019).

Paşayev (2017) müəllimlik peşəsi haqqında məqaləsində, müasir müəllimin pedaqoji fəaliyyəti, onların müəllimlik peşəsinə hazırlanması, eyni zamanda müəllimlərin təlim, təhsil, tərbiyə fəaliyyəti, müəllim etika-estetikası kimi məsələlərə toxunmuşdur. Paşayevin, müəllimlik peşəsi haqqında araşdırması təsviri xarakter daşıyır. Nəticə olaraq, cəmiyyətin

inkişafında müəllimlik peşəsinin mühüm rolu olduğu, buna görə də, müəllimin savadlı, peşəsini sevən, öz sahəsinin bilicisi kimi formalaşmağının vacib olduğu qənaətinə gəlinmişdir

Verdiyeva (2019), müəllimlərin peşə səriştəliyinə yiyələnməsinin forma və metodları haqqında məqaləsində, pedaqoji ixtisaslarda oxuyan müəllim namizədlərinin təfəkkür xüsusiyyətlərinin formalaşdırılması, onların passivliyinin aradan qaldırılması, təlim keyfiyyətlərinin yüksəldilməsi kimi məsələlərdən bəhs edir. Müəllif, ali pedaqoji təhsildə, gələcək müəllimlərin peşə səriştəliyinə yiyələnməsinin forma və metodlarının düzgün müəyyən olunmasının əhəmiyyətini vurğulayır. Məqalə, müəllimlik peşəsinə namizəd tələbələrin peşə səriştəliyinin formalaşdırılmasının əlverişli forma və metodlarının vacib istiqamətlərinin müəyyən edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

# FƏSİL III

# METODOLOGİYA

Bu fəsildə tədqiqatın metodologiyasına dair məlumatlar yer almaqdadır. Tədqiqatda istifadə olunan metod, populyasiya və tədqiqat qrupu haqqında məlumat bu fəsildə yer alır.

## 3.1.Tədqiqatın metodu

Tədqiqatda, regionda fəaliyyət göstərən universitetin pedaqoji ixtisaslarında təhsil alan tələbələrin müəllimlik peşəsinə münasibətlərini öyrənməyi eyni zamanda bu göstəricilərin bəzi faktorlara görə statistik olaraq əhəmiyyətli şəkildə fərqlənib-fərqlənmədiyini müəyyən etmək məqsədi qoyulduğu üçün kəmiyyət tədqiqat metodununa daxil olan anket sorğusundan istifadə edilmişdir. Kəmiyyət araşdırması, sayca böyük və seçmə toplum üzərində aparılır. Kəmiyyət tədqiqatlarında problemin miqyası, tendensiyası və gedişatı təsvir edilir və dəyişənlər arasındakı əlaqə müəyyən olunaraq, hadisələrin meydana gəlmə səbəbləri müəyyənləşdirilir. Kəmiyyət araşdırması əsasən mövcud konsepsiyalara əsaslanaraq həyata keçirilir. Kəmiyyət tədqiqatlarından istifadə etməklə keçmiş və indiki vəziyyəti araşdıraraq və təhlil edərək gələcəyə aid fikirlər söylənilməsi mümkündür (Şahbazov, 2019).

## 3.2. Populyasiya və tədqiqat qrupu

2023-2024-cü akademik ilində, region universitetində təhsil alan müəllimlik ixtisası tələbələri araşdırmanının populyasiyasıdır. Universitetdə ümumilikdə 17 fərqli müəllimlik ixtisasında 975 tələbə təhsil alır. İştirakçılar, xəta payı və etibarlılıq səviyyəsi nəzərə alınaraq, təsadüfi seçmə (random sample) üsulu ilə seçilmişdir. Beləliklə tədqiqatın tədqiqat qrupuna Yazıçıoğlu və Erdoğan (2004) hesablamasından yola çıxaraq, 350 iştirakçı ölçmə üçün yetərli hesab edilmişdir.

## 3.3. Data toplama texnikası

Deskriptiv yanaşma ilə dizayn edilən tədqiqatda dataların toplanması üçün anketdən istifadə olunmuşdur. Tədqiqat zamanı, sorğuda demoqrafik göstəriciləri ilə bağlı suallar ilə birlikdə eyni zamanda validliyi və etibarlılığı (0.93) Üstüner (2006) (qoşma 1) tərəfindən yoxlanılmış "Müəllimlik Peşəsinə Münasibət (Öğretmenlik Mesleğine Yönelik Tutum Ölçeği)" adlı 34 maddədən ibarət beşli qiymətləndirmə şkalası ilə data toplanmışdır.

Anket, struktur cəhətdən müəyyən tərzdə təşkil olunmuş və hər biri tədqiqatın əsas vəzifəsi ilə məntiqi surətdə bağlı olan suallar yığımıdır. Anket sorğuları müşahidə etməsi mümkün olmayan məlumatların ölçülməsi üçün əla üsuldur (Vəliyev, 2015). Anket sorğuları vasitəsilə müxtəlif dəyişənlər arasındakı əlaqələr aşkarlana, tendensiyalar müəyyənləşdirilə və gələcəyə dair proqnozlar verilə bilər (Şahbazov, 2019). Bu metodun üstünlüklərindən biri ondan ibarətdir ki, az vaxt sərf etməklə geniş miqyaslı problemləri əhatə edə biləcək çoxlu miqdarda məlumatlar əldə etmək olur. Tədqiqat zamanı, şəxsin hissləri, davranış motivləri və subyektiv fikirləri haqqında dolğun məlumat almaq üçün sorğu metodu əvəzedilməzdir (Thomas, 1998).

## 3.4. Pilot tətbiqetmə

Data toplama aləti fərqli dildə hazırlandığı üçün Azərbaycan konteksinə uyğunlaşdırılması zəruridir. Dissertasiyada data toplamaq üçün istifadə olunmamışdan əvvəl ölçmə alətinin pilot tətbiqi həyata keçirilmişdir. Bunun üçün ilkin mərhələdə sorğu aləti Azərbaycan dilinə tərcümə olunmuş (qoşma 2) və tərcümə mütəxəssis tərəfindən yoxlanılmışdır. Yoxlama nəticəsində verilən düzəltmə və şərhlər (qoşma 3) nəzərə alınaraq data toplama alətinin üzərində təkmilləşdirmələr aparılmış və pilot tətbiq həyata keçirilmişdir.

Bunun üçün populyasiyadan təsadüfi seçmə üsulu ilə müəyyən olunmuş sayda müəllim namizədinə anket sorğusu tətbiq edilmiş, cavablar toplanmış və datalar SPSS proqramı ilə təhlil edilmişdir. Validlik və etibarlılıq üçün Eigen dəyərinə və Cronbach Alpha əmsalına baxılmışdır. Cronbach Alpha əmsalı 0.95 olaraq əldə edilmişdir. Bu rəqəm sorğu alətinin etibarlılığını təsdiq edir. Cədvəl 1-də isə ölçmə alətinin uyğunluq nəticələri vardır.

Cədvəl 1. Ölçmə alətinin uyğunluq nəticəsi

| **Uyğunluq Ölçüsü** | **Uyğunluq ölçüsü** | **Qəbul edilən uyğunluq ölçüsü** | **Ölçmə aləti nəticəsi** | **Vəziyyət** |
|---|---|---|---|---|
| **$\chi 2$ / sd** | $0 \leq \chi 2$ / sd $\leq 2$ | $\chi 2$ / sd $\leq 5$ | 2,238 | Məqbul |
| **RMSEA** | 0,00≤RMSEA≤0,05 | RMSEA≤0,08 | 0,010 | Məqbul |
| **GFI** | 0,95≤GFI≤1,00 | GFI≥0,90 | 0,78 | Qənaətbəxş deyil |
| **RMR** | 0,90≤IFI≤0,95 | IFI≥0,90 | 0,78 | Qənaətbəxş deyil |
| **SRMR** | 0,00≤SRMR≤0,05 | SRMR≤0,08 | 0,078 | Məqbul |

Cədvəl 1-dəki göstəricilər təhlil etdikdə bəzi dəyərlərin məqbul aralığına daxil olduğu müşahidə olunur. ($\chi^2$ = 1154,670, sd = 516, $\chi^2$/sd 2,23, RMSEA = .100 (LO = .093, HI = .108), SRMR = .078, GFI = .78, RMR = .78). Müəllimlik namizədlərinin müəllimlik peşəsinə münasibəti ölçü alətinin Azərbaycandakı tədqiqat qrupu ilə etibarlı nəticə verib-verməyəcəyinin təhlilini göstərən cədvəl 1-ə görə uyğun qəbul edilmişdir. Beləliklə əldə edilən pilot nəticədən yola çıxaraq ölçmə aləti bu tədqiqatda istifadə edilmişdir.

# FƏSİL IV

# TAPINTILAR

Tədqiqatın bu fəslində, regionda fəaliyyət göstərən universitetin pedaqoji ixtisaslarında təhsil alan müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətlərini öyrənmək məqsədi ilə istifadə olunan ölçmə vasitəsindən əldə olunan nəticələr yer almaqdadır. Nəticələr SPSS paket proqramı ilə təhlil edilərək əldə edilmişdir. Tədqiqat iştirakçıları ilə əlaqəli statistika məlumatları 385 iştirakçının cavabları üzərindən verilmişdir. Maddələrə verilən cavablar üzərindən təhlil aparılarkən data əksikliyi nəzərə alınaraq, 360 iştirakçının cavabları əsasında təhlil nəticələri təqdim olunur.

## 4.1. İştirakçıların demoqrafik məlumatlarına dair nəticələr

Populyasiyanı təmsil etmək üçün tədqiqat qrupu seçilmişdir. Tədqiqatda iştirak edən müəllim namizədlərinin demoqrafik məlumatlarının say və faiz göstəriciləri Cədvəl 2-də göstərilmişdir.

Cədvəl 2. Demoqrafik göstəricilər

| Göstərici | Dəyişən | N | % |
|---|---|---|---|
| Cinsiyyət | Kişi | 77 | 20 |
| | Qadın | 308 | 80 |
| Yaş | 17-18 | 133 | 34.5 |
| | 19-20 | 158 | 41 |
| | 21 və üzəri | 94 | 24.4 |
| Qəbul balı | 150-250 | 89 | 23,1 |
| | 251-350 | 136 | 35,3 |
| | 351-450 | 128 | 33,2 |
| | 451-550 | 32 | 8,3 |

| | | | |
|---|---|---|---|
| Kurs | I | 118 | 30,6 |
| | II | 75 | 19,5 |
| | III | 74 | 19,2 |
| | IV | 81 | 21 |
| | V | 37 | 9,6 |
| Cəmi | | 385 | 100 |

Cədvəl 2- də göründüyü kimi, sorğuda iştirak edən müəllim namizədlərinin 308-i (80%) qadın, 77-si (20%) isə kişidir. Yaş səviyyələrinə görə müəllim namizədlərinin 133-ü (34,5%), 17-18 yaş, 158-i (41%) 19-20 yaş, 94-ü isə (24.4%) 21 yaşdan yuxarı yaş kateqoriyasındadır. Pedaqoji ixtisaslara qəbul balına görə 150-250 bal aralığında 89-u (23,1%), 251-350 bal aralığında 136-sı (35,3%), 351-450 bal aralığında 128-i (33,2%), 451-550 bal aralığında 32-i (8,3 %), qəbul aldıqlarını bildirmişdir.Təhsil aldıqları kurslara baxdıqda, 118-i (30,6%) 1-ci kurs, 75-i (19,5%) 2-ci kurs, 74-ü (19,2%) 3-cü kurs, 81-i (21%) 4-cü kurs, 37-i (9,6%) 5-ci kurs tələbələridir. Tədqiqat qrupunda yer alan müəllim namizədlərinin ixtisasları ilə əlaqəli məlumatlar şəkil 1-də təqdim edilir.




Şəkil 1. Müəllim namizədlərinin təhsil aldıqları ixtisaslar

Şəkil 1-də təsvir olunan məlumatlara əsasən, ixtisaslarına görə, 87-i (23%) Azərbaycan dili və ədəbiyyatı müəllimliyi,  45-i (11,7%)  tarix və coğrafiya müəllimliyi, 18-i (4,7%) kimya və biologiya müəllimliyi, 59-u (15,3%) riyaziyyat və informatika müəllimliyi,  19-u (4,9%) tarix müəllimliyi, 15-i (3,9%) informatika müəllimliyi, 11-i (2,9%) fizika müəllimliyi, 19-u (4,9%) riyaziyyat müəllimliyi, 61-i (15,3%) ibtidai sinif müəllimliyi, 20-si (5,2%) məktəbəqədər təlim və tərbiyə, 31-i (8,1%) fiziki tərbiyə və gənclərin çağrışaqədərki hərbi hazırlığı müəllimliyi ixtisaslarında təhsil alır. Şəkil 2-də isə müəllim namizədlərinin ailəsində müəllimlik peşəsinə sahib olan şəxsin olub-olmaması dəyişəni ilə bağlı məlumat verilmişdir.




Şəkil 2. Ailədə müəllimlik peşəsinə sahib olan şəxsin göstəricisi

Şəkil 2-də təsvir olunan məlumatlara əsasən müəllim namizədlərinin 149-unun (38,5%) ailəsində müəllimlik peşəsinə sahib olan şəxs vardır. 236-sının (61,5%) isə ailəsində müəllimlik peşəsində təhsil alan yoxdur.

## 4.2. Müəllim namizədlərinin ixtisas seçimi ilə bağlı statistika nəticələri

Üstüner (2006) tərəfindən validliyi və etibarlılığı təmin edilmiş ölçü alətindən istifadə edilərək məlumat əldə edilmişdir. Burada ölçü aləti təhlili ilə əldə edilən nəticələr yer almaqdadır. Şəkil 3-də müəllim namizədlərinin müəllim peşəsinə münasibətlərinin Doğrulayıcı Faktor Təhlili (DFT) nəticələri vardır.

### 4.2.1.Struktur etibarlılığı

DFT tez-tez istifadə olunan və ölçmə modellərinin işlənib hazırlanmasında əhəmiyyətli rahatlıq təmin edən təhlil üsuludur. Bu üsul əvvəllər yaradılmış model vasitəsilə müşahidə olunan dəyişənlər əsasında etibarlılıq təhlilində istifadə olunur və ya əvvəlcədən müəyyən edilmiş strukturu yoxlamaq məqsədi daşıyır.




Şəkil 3. Müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətləri ilə əlaqəli DFT modeli

Şəkil 3-də yer alan DFT modeli tədqiqatda data toplama aləti olaraq istifadə edilən anketin və əldə edilən nəticələrin etibarlılığını göstərir. Etibarlılığı təmin edilən dataların faktor yükləri təhlil edilmiş və cədvəl 3-də təqdim edilmişdir.

Cədvəl 3. Müəllimlik peşəsinə münasibət adlı ölçü alətinə aid standartlaşdırılmış reqressiya və t dəyərləri

| Faktor | Maddələr | Standartlaştırılmış Faktor Yükləri (λi) | $R^2$ | Standart Xəta | t dəyəri | p dəyəri |
|---|---|---|---|---|---|---|
| Müəl limli k | M1 | .72 | .52 | 0,138 | 7,025 | 0.000 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | M2 | .76 | .58 | 0,103 | 10,81 | 0.000 |
| | M3 | .67 | .45 | 0,129 | 7,367 | 0.000 |
| | M4 | .74 | .55 | 0,175 | 8,159 | 0.000 |
| | M5 | .79 | .62 | 0,13 | 8,744 | 0.000 |
| | M6 | .76 | .58 | 0,161 | 8,334 | 0.000 |
| | M7 | .81 | .66 | 0,118 | 8,906 | 0.000 |
| | M8 | .78 | .61 | 0,129 | 8,663 | 0.000 |
| | M9 | .60 | .36 | 0,102 | 6,548 | 0.000 |
| | M10 | .56 | .31 | 0,149 | 6,103 | 0.000 |
| | M11 | .66 | .44 | 0,099 | 7,274 | 0.000 |
| | M12 | .61 | .37 | 0,158 | 6,741 | 0.000 |
| | M13 | .74 | .55 | 0,099 | 8,21 | 0.000 |
| | M14 | .64 | .41 | 0,139 | 7,023 | 0.000 |
| | M15 | .63 | .40 | 0,178 | 6,885 | 0.000 |
| | M16 | .73 | .53 | 0,123 | 8,093 | 0.000 |
| | M17 | .70 | .49 | 0,12 | 7,678 | 0.000 |
| | M18 | .55 | .30 | 0,111 | 6,022 | 0.000 |
| | M19 | .51 | .26 | 0,1 | 5,615 | 0.000 |
| | M20 | .65 | .42 | 0,143 | 7,151 | 0.000 |
| | M21 | .31 | .10 | 0,208 | 3,385 | 0.000 |
| | M22 | .77 | .59 | 0,128 | 8,476 | 0.000 |
| | M23 | .72 | .52 | 0,154 | 7,968 | 0.000 |
| | M24 | .58 | .34 | 0,111 | 6,386 | 0.000 |

| | | | | | |
|---|---|---|---|---|---|
| M25 | .66 | .44 | 0,135 | 7,2 | 0.000 |
| M26 | .58 | .34 | 0,13 | 6,302 | 0.000 |
| M27 | .67 | .45 | 0,114 | 7,345 | 0.000 |
| M28 | .58 | .34 | 0,122 | 6,375 | 0.000 |
| M29 | .67 | .45 | 0,193 | 7,338 | 0.000 |
| M30 | .41 | .17 | 0,169 | 4,455 | 0.000 |
| M31 | .74 | .55 | 0,124 | 8,187 | 0.000 |
| M32 | .20 | .04 | 0,232 | 2,141 | 0.032 |
| M33 | .46 | .21 | 0,149 | 5,026 | 0.000 |
| M34 | .63 | .40 | 0,126 | 6,923 | 0.000 |

Cədvəl 3-də "Müəllim namizədlərinin peşələrinə münasibəti" adlı ölçü vasitəsinə aid standartlaşdırılmış reqressiya və t dəyərləri görülməkdədir. Tək faktorlu və M21 və M32 xaric 32 maddəli sorğunu təşkil edən maddələrin yük dəyərlərinin .41 ilə .81 arasında dəyişdiyi müşahidə olunur. Bu maddələr çıxarılaraq təhlil edilmişdir. Beləliklə hər bir maddənin məqbul aralığa daxil olduğu və p dəyərlərinin əhəmiyyətli olduğu görülməkdədir. Həm şəkil 3, həm də cədvəl 3-ə baxıldıqda "Müəllimlik Peşəsinə Münasibət" adlı ölçmə alətinə aid doğrulayıcı faktor təhlilinin struktur etibarlılığını ortaya qoyduğu görülməktədir.

## 4.2.2.Normallıq dəyərləri ilə bağlı tapıntılar

Tədqiqatın nəticələri əldə edilmədən və hansı növ (parametrik və ya qeyri-parametrik) testlərin həyata keçiriləcəyinə qərar verməzdən əvvəl tədqiqatın asılı dəyişənin (Müəllimlik peşəsinə münasibət) normal paylanma göstərib-göstərmədiyi yoxlanılmışdır. Normallıq fərziyyələrinə görə n>50 isə əyilmə və kurtoz əmsallarının ±1,50 olarsa, paylanma normal

hesab olunur və parametrik testlər tətbiq olunur (Tabachnick & Fidell, 2007). Buna əsasən asılı dəyişənin normal paylanma göstəriciləri cədvəl 4-də təqdim olunur.

Cədvəl 4. Tədqiqatın asılı dəyişəni üçün normal test nəticələri

| **Normallıq Testləri** | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Dəyişkənlər** | Kolmogorov-Smirnov[a] | | | Shapiro-Wilk | | | | |
| | statistik | sd | p | statistik | sd | p | Əyilmə | Kurtoz |
| **Müəllimlik peşəsinə münasibət** | 0,080 | 360 | .000 | 0,960 | 360 | .000 | -0,503 | -0,444 |
| **a. Lilliefors Significance Correction** | | | | | | | | |

Cədvəl 4-ə baxarkən, asılı dəyişənin əyilmə və kurtoz əmsallarının ±1,50 aralığında olduğu müşahidə edilir. Bu hal, məlumatların normal şəkildə paylandığını göstərir. Bundan başqa, asılı dəyişənin normal paylanmasını göstərən Q-Q histoqramları şəkil 4-də verilmişdir.



Şəkil 4. Asılı dəyişənin Q-Q histoqramı

Şəkil 4 - dən də göründüyü kimi məlumatlar normal paylanmanı göstərir. Ölçmə alətinin etibarlılıq və validliyi ilə normal paylanma nəticələri əldə etdikdən sonra dəyişənlərlə əlaqəli statistika nəticələri təqdim edilmişdir.

### 4.2.3.Fərqlənmə testləri ilə bağlı tapıntılar

Tədqiqat zamanı müəllim namizədlərinin peşəyə istifadə olunan demoqrafik dəyişənlərdən bəziləri ilə asılı dəyişən arasındakı statistik fərqləri göstərən testlər aşağıda göstərilmişdir.

- **Cinsiyyətə görə fərqlilik**

Cədvəl 5-də müəllim namizədlərinin müəllimlik peşəsinə münasibəti ilə cinsiyyət dəyişkəni arasındakı statistik fərqi göstərən müstəqil qruplar t testi nəticələri qeyd olunmuşdur.

Cədvəl 5. Müəllim namizədlərinin peşələrinə münasibətinin cinsiyyət dəyişəni baxımından fərqliliyini göstərən t-testi nəticələri

| Dəyişkənlər | Cinsiyyət | N | $\bar{\bar{X}}$ | S | Sd | t | p | Cohen's d |
|---|---|---|---|---|---|---|---|---|
| **Müəllimlik peşəsinə münasibət** | Kişi | 67 | 3,96 | 0,59 | 358 | -3,383 | .00 | 0.55 |
| | Qadın | 293 | 4,21 | 0,52 | | | | |

Cədvəl 5-ə görə, müəllim namizədlərinin peşələrinə münasibəti cinsiyyətləri baxımından statistik olaraq əhəmiyyətli bir fərqlilik göstərməkdədir. [$t$ (358) = -3,383, $p$<.05]. Ədədi ortalamaya baxıldığı zaman qadın tələbələrin statistika ortası ($\bar{\bar{X}}_{qadın}$= 4,21) kişi ($\bar{\bar{X}}_{kişi}$= 3,

96) tələbələrinin orta göstəricilərindən əhəmiyyətli dərəcədə yüksək olduğu və bu əhəmiyyətli fərqin qadın tələbələrin lehinə olduğu müşahidə olunur. Bir sözlə, qadın namizədlərin peşəsinə müsbət münasibəti daha yüksəkdir. Statistik olaraq, əhəmiyyətli fərqlilik müşahidə edilən bu alt kateqoriya təsir böyüklüyünü hesablamaq üçün Cohen's d formulu istifadə olunmuşdur. İki dəyişən arasındakı fərqin hesablandığı statistik metodlar (tək qrup t-test, əlaqəli nümunələr üçün t-test, əlaqəsi olmayan nümunələr üçün t-testi, vb.) üçün təsir böyüklüyünü hesablamaq üçün Cohen's d formulu (Cohen, 1988) geniş istifadə olunur. Hesablamaların nəticəsi olaraq, əldə edilən Cohen`s d dəyəri belə izah olunur: .20- kiçik (small) təsir ölçüsü; .50- orta (medium); 80 isə böyük (large) təsir ölçüsü kimi qəbul olunur (Cohen, 1988). Hesablanan Cohen's d formuluna (0,55) əsasən cinsiyyət dəyişkəninin müəllimlik peşəsinə münasibətdə orta səviyyədə təsirinin olduğu görülməkdədir.

- **Ailədə müəllimlik peşəsinə sahib olan şəxsin olub-olmaması vəziyyətinə görə nəticələr**

Cədvəl 6-da müəllimlik peşəsinə münasibət ilə ailədə müəllimlik peşəsinə sahib şəxsin olub-olmaması vəziyyəti arasındakı fərqi göstərən müstəqil qruplar t testi nəticələri qeyd olunmuşdur.

Cədvəl 6. Müəllimlik peşəsinə münasibətin müəllim namizədlərinin ailələrində müəllimlik peşəsinə sahib olan şəxsin olub-olmaması vəziyyətinə görə fərqliliyini göstərən t-testi nəticələri

| **Dəyişkənlər** | **Ailə üzvü** | **N** | $\bar{\bar{X}}$ | **S** | **Sd** | **t** | **p** | **Cohen's d** |
|---|---|---|---|---|---|---|---|---|
| **Müəllimlik peşəsinə münasibət** | Hə | 142 | 4,20 | 0,52 | 358 | 1,136 | .26 | - |
| | Yox | 218 | 4,13 | 0,56 | | | | |

Cədvəl 6-ya görə, müəllimlik peşəsinə münasibət ilə müəllim namizədlərin ailəsində müəllimlik peşəsinə sahib olan şəxsin olub - olmaması vəziyyəti arasında statistik baxımdan əhəmiyyətli fərq yoxdur [$t$ (358) = 1,136, $p$>.05]. Ədədi ortaya baxıldığı zaman ailəsində müəllimlik peşəsinə sahib olan namizədlərin ($\bar{\bar{X}}_{hə}$=4,20) orta göstəricisi ailəsində müəllimlik peşəsinə sahib olmayan namizədlərə nisbətən ($\bar{\bar{X}}_{yox}$=4,13) yüksək olduğu görülməkdədir. Ancaq statistik baxımından qəbul deyildir.

- **Yaşa görə fərqlilik**

Cədvəl 7- də Müəllimlik peşəsinə münasibət ilə müəllim namizədlərinin yaş aralıqları arasındakı statistik fərqi göstərən tək yönlü ANOVA testi nəticələri yer almışdır.

Cədvəl 7. Müəllimlik peşəsinə münasibət ilə yaş aralıqları arasındakı tək yönlü ANOVA nəticəsi

| Dəyişən | Yaş | $n$ | $\bar{\bar{X}}$ | SS | Kvadrat cəmi | df | Kvadrat orta | F | $p$ | *Fərq Tukey* |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Müəllimlik peşəsinə münasibət** | 17-18 Yaş | 126 | 4,13 | 0,55 | | | | | | |
| | 19-20 Yaş | 152 | 4,21 | 0,55 | 0,735 | 2 | | | | |
| | 21+ Yaş | 82 | 4,11 | 0,51 | | 357 | 0,367 | 1,231 | .29 | - |
| | CƏM | 360 | 4,16 | 0,54 | | 359 | | | | |

Cədvəl 7-də tədqiqatda iştirak edən müəllim namizədlərin yaş aralıqları ilə müəllimlik peşəsinə münasibət arasında əhəmiyyətli fərqin olub - olmadığını göstərən tək yönlü varyans analizi (ANOVA) nəticələri görülməkdədir. Cədvələ 7-ə görə müəllim namizədlərinin yaş

aralıqları ilə müəllimlik peşəsinə münasibət arasında əhəmiyyətli fərq yoxdur [$F$ (2-357) = 1,231; $p$>.05]. Ədədi orta dəyərlərinə görə ən yüksək orta 19-20 yaş aralığındakı müəllim namizədlərində ($\bar{\bar{X}}$= 4,21) olarkən, ən aşağı orta isə 21+ yaşdakı müəllim namizədlərindədir. ($\bar{\bar{X}}$= 4,11).

- **Kurs səviyyəsinə görə fərqlilik**

Cədvəl 8-də müəllimlik peşəsinə münasibət ilə müəllim namizədlərinin kurs səviyyəsi arasındakı fərqi göstərən tək yönlü ANOVA testi nəticələri yer almaqdadır.

Cədvəl 8. Müəllim namizədlərinin kurs səviyyələri ilə müəllimlik peşəsinə münasibət arasındakı tək yönlü varyans analizi (ANOVA) nəticələri

| Dəyişkən | Kurs səviyyəsi | *n* | $\bar{\bar{X}}$ | SS | Kvadrat ort. | df | Kvadrat ort. | F | *p* | *Fərq Tukey* |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Müəllimlik peşəsinə münasibət** | Birinci kurs | 115 | 4,12 | 0,55 | 1,937 | 4<br>355<br>359 | 0,484 | 1,632 | .17 | - |
| | İkinci kurs | 69 | 4,25 | 0,56 | | | | | | |
| | Üçüncü kurs | 71 | 4,17 | 0,51 | | | | | | |
| | Dördüncü kurs | 74 | 4,20 | 0,54 | | | | | | |
| | Beşinci kurs | 31 | 3,97 | 0,54 | | | | | | |
| | Cəm | 360 | 4,16 | 0,54 | | | | | | |

Cədvəl 8- də tədqiqatda iştirak edən müəllim namizədlərinin kurs səviyyələri ilə müəllimlik peşəsinə münasibət arasında əhəmiyyətli fərq olub - olmadığını göstərən tək yönlü varyans analizi (ANOVA) nəticələri görülməkdədir. Cədvələ görə müəllim namizədlərinin kurs səviyyələri ilə müəllimlik peşəsinə münasibət arasında statistik əsaslı əhəmiyyətli fərq yoxdur. [$F$ (4-355) = 1,632; $p$>.05]. Ədədi orta dəyərlərinə görə ən yüksək orta ikinci kursda təhsil alan müəllim namizədlərində ($\bar{\bar{X}}$= 4,25) olarkən, ən aşağı orta isə beşinci kursda təhsil alan müəllim namizədlərindədir ($\bar{\bar{X}}$= 3,97).

- **Müəllimlik peşəsinə qəbul balına görə nəticələr**

Cədvəl 9- da müəllimlik peşəsinə münasibət ilə müəllim namizədlərinin qəbul balları arasındakı statistik fərqi göstərən tək yönlü ANOVA testi nəticələri yer almaqdadır.

Cədvəl 9. Müəllim namizədlərinin müəllimlik peşəsinə qəbul balları ilə müəllimlik peşəsinə münasibət arasındakı tək yönlü varyans analizi (ANOVA) nəticələri

| Dəyişkən | Qəbul balı | *n* | $\bar{\bar{X}}$ | SS | Kvadrat ort. | df | Kvadrat ort. | F | *p* | *Fərq Tukey* |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Müəllimlik peşəsinə münasibət** | 150-250 arası | 85 | 4,09 | 0,57 | 1,937 | 3<br>356<br>359 | 0,228 | 0,762 | .52 | - |
| | 251-350 arası | 127 | 4,17 | 0,56 | | | | | | |
| | 351-450 arası | 121 | 4,20 | 0,50 | | | | | | |
| | 451-550 arası | 27 | 4,14 | 0,55 | | | | | | |

| | | | | |
|---|---|---|---|---|
| | Cəm | 360 | 4,16 | 0,54 |

Cədvəl 9- da tədqiqatda iştirak edən müəllim namizədlərinin, müəllimlik peşəsinə qəbul bal aralıqları ilə müəllimlik peşəsinə münasibətləri arasında əhəmiyyətli fərqin olub-olmadığını göstərən tək yönlü varyans analizi (ANOVA) nəticələri görülməkdədir. Cədvələ görə, namizədlərin peşəyə qəbul bal aralıqları dəyişəni ilə müəllimlik peşəsinə münasibət arasında statistik əsaslı əhəmiyyətli fərq yoxdur [*F* (3-356) = 1,762; *p*>.05]. Ədədi orta dəyərlərinə görə ən yüksək orta qəbul balı 351-450 arasında olan namizədlərdə ($\bar{\bar{X}}$= 4,20) olarkən, ən aşağı orta isə qəbul balı 150-250 arasında olan müəllim namizədlərindədir ($\bar{\bar{X}}$= 4,09).

- **İxtisasa görə fərqlilik**

Cədvəl 10 - da müəllimlik peşəsinə münasibət ilə, müəllim namizədlərinin ixtisasları arasındakı statistik fərqi göstərən tək yönlü ANOVA testi nəticələri yer almışdır.

Cədvəl 10. Müəllim namizədlərinin ixtisasları ilə müəllimlik peşəsinə münasibət arasındakı tək yönlü varyans analizi (ANOVA) nəticələri

| Dəyişən | İxtisas | *n* | $\bar{\bar{X}}$ | SS | Kvadrat ort. | df | Kvadrat ort. | F | *p* | *LSD* |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Müəllimlik peşəsinə** | 1-Riyaziyyat və informatika müəllimliyi | 50 | 4,23 | 0,50 | 5,754 | 10 | 0,575 | 1,978 | .03 | 1>8<br>1>10 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2-Azərbaycan dili və ədəbiyyat müəllimliyi | 85 | 4,25 | 0,53 | 349<br>359 | 2>8<br>2>10<br>3>8<br>3>10<br>4>8<br>4>10 |
| 3-İbtidai sinif müəllimliyi | 55 | 4,25 | 0,51 | | |
| 4-Tarix müəllimliyi | 19 | 4,31 | 0,42 | | |
| 5-Məktəbəqədər təlim və tərbiyə | 20 | 4,05 | 0,45 | | |
| 6-Fiziki tərbiyə və gənclərin çağrışaqədərki hərbi hazırlığı müəllimliyi | 30 | 4,07 | 0,60 | | |
| 7-Fizika müəllimliyi | 11 | 4,13 | 0,59 | | |
| 8-Kimya və biologiya müəllimliyi | 18 | 3,83 | 0,53 | | |
| 9-Riyaziyyat müəllimliyi | 19 | 4,15 | 0,64 | | |

| | | | |
|---|---|---|---|
| 10-Tarix və coğrafiya müəllimliyi | 38 | 3,96 | 0,62 |
| 11-İnformatika müəllimliyi | 15 | 4,18 | 0,41 |
| Toplam | 360 | 4,16 | 0,54 |

Cədvəl 10 - da tədqiqatda iştirak edən müəllim namizədlərinin ixtisası ilə müəllimlik peşəsinə münasibət arasında əhəmiyyətli fərqin olub-olmadığını göstərən tək yönlü varyans analizi (ANOVA) nəticələri görülməkdədir. Cədvələ görə, müəllim namizədlərinin müəllimlik ixtisası ilə müəllimlik peşəsinə münasibətləri arasında statistik əsaslı əhəmiyyətli fərq vardır [$F$ (10-349) = 1,978; $p$<.05]. Əhəmiyyətli fərqin hansı qruplar arasında olduğunu müəyyən etmək üçün tətbiq edilən post-hoc testlərindən LSD testinin nəticəsinə görə, Riyaziyyat və İnformatika müəllimliyi ($\bar{\bar{X}}$= 4,23), Kimya və biologiya müəllimliyi ($\bar{\bar{X}}$= 3,83) və Tarix və coğrafiya müəllimliyi ($\bar{\bar{X}}$= 3,96) arasında əhəmiyyətli fərqlilik vardır və bu fərqlilik Riyaziyyat və informatika müəllimliyi ixtisasında təhsil alan müəllim namizədlərinin lehinədir. Başqa sözlə, riyaziyyat və informatika müəllimliyi ixtisasında təhsil alan namizədlərin müəllimlik peşəsinə münasibəti əhəmiyyətli şəkildə daha yüksəkdir.

LSD testinin nəticəsinə görə, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ($\bar{\bar{X}}$= 4,25), Kimya və biologiya müəllimliyi ($\bar{\bar{X}}$=3,83) və Tarix və coğrafiya müəllimliyi ($\bar{\bar{X}}$=3,96) arasında əhəmiyyətli fərqlilik vardır və bu fərqlilik Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasında təhsil alan müəllim namizədlərinin lehinədir. Başqa sözlə, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasında təhsil alan müəllim namizədlərinin müəllimlik peşəsinə münasibəti əhəmiyyətli şəkildə daha yüksəkdir.

LSD testinin nəticəsinə görə, İbtidai sinif müəllimliyi ($\bar{\bar{X}}$= 4,25) Kimya və biologiya müəllimliyi ($\bar{\bar{X}}$= 3,83) və Tarix və coğrafiya müəllimliyi ($\bar{\bar{X}}$=3,96) ixtisasları arasında əhəmiyyətli fərqliliklər vardır və bu fərqlilik İbtidai sinif müəllimliyi ixtisasında təhsil alan müəllim namizədlərinin lehinədir. Başqa sözlə, İbtidai sinif müəllimliyi ixtisasında təhsil alan müəllim namizədlərinin müəllimlik peşəsinə münasibəti əhəmiyyətli şəkildə daha yüksəkdir.

LSD testinin nəticəsinə görə, Tarix müəllimliyi ($\bar{\bar{X}}$= 4,25) Kimya və biologiya müəllimliyi ($\bar{\bar{X}}$=3,83) və Tarix və coğrafiya müəllimliyi ($\bar{\bar{X}}$=3,96) arasında əhəmiyyətli fərqlilik vardır və bu fərqlilik Tarix müəllimliyi ixtisasında təhsil alan tələbələrin lehinədir. Başqa sözlə, Tarix müəllimliyi ixtisasında təhsil alan müəllim namizədlərinin müəllimlik peşəsinə münasibəti əhəmiyyətli şəkildə daha yüksəkdir. Digər ixtisaslar arasında statistik əsaslı fərqlilik yoxdur.

## 4.3. Müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətləri ilə bağlı tapıntılar

Tədiqatda iştirak edən müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətləri ilə bağlı tapıntılar cədvəl 11- də verilməkdədir.

Cədvəl 11. Müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətlərinə aid təsviri məlumatlar

| Alt ölçülər | N | $\bar{\bar{X}}$ | SS | Səviyyə |
|---|---|---|---|---|
| **Müəllimlik peşəsinə münasibət** | 360 | 4,16 | 0,54 | Razıyam |

Cədvəl 11-ə görə müəllim namizədlərinin Müəllimlik peşəsinə münasibət səviyyələrinin arifmetik orta dəyəri $\bar{\bar{X}}$ = 4,16; SS= 0,54; “Razıyam” səviyyəsində müəyyən

edilmişdir. Bir başqa ifadə ilə, regionda fəaliyyət göstərən universitetdə müəllimlik ixtisasında təhsil alan tələbələrin  müəllimlik peşəsinə münasibətləri qənaətbəxş səviyyədədir.

# V FƏSİL

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Tədqiqatın bu fəslində, araşdırmada istifadə olunan dataların təhlili ilə əldə olunan tapıntılar ilə bağlı şərhlər müzakirələr və təkliflər yer alır. Belə ki, məlumat toplama vasitələri (şəxsi məlumat forması və anket sorğusu) və tətbiq edilən statistik prosedurlar vasitəsilə əldə edilən məlumatlar nəticəsində müəllimlik peşəsinə namizədlərin bəzi dəyişənlərə görə münasibətlərinin fərqli olduğu müəyyən edilmişdir.

## 5.1. Nəticə

Araşdırma pedaqoji ixtisaslarda oxuyan tələbələrin müəllimlik peşəsinə münasibətini və bu münasibətin cinsiyyət, yaş, qəbul balı, təhsil aldıqları ixtisas və ailədə müəllimlik peşəsində şəxsin olub-olmaması fakorlarına görə əhəmiyyətli fərqlilik göstərib- göstərmədiyini öyrənmək məqsədi daşıyır. Tədqiqat nəticəsində əldə olunan nəticələrə baxıldıqda, pedaqoji ixtisaslarda oxuyan tələbələrin müəllimlik peşəsinə münasibət səviyyələrinin arifmetik orta dəyərinin ( $\bar{\bar{X}}$ = 4,16) müsbət yəni "Razıyam" səviyyəsində olduğu müəyyən edilmişdir. Mövzuya uyğun ədəbiyyat araşdırılması edilən zaman, İlter (2009); Taşdemir (2014), Aliyu və Ado (2015), Özkannın (2017) apardıqları tədqiqatlar zamanı bənzər nəticələr əldə etdiklərini görmək olur. Bu nəticəni, müəllim namizədlərinin müəllimlik peşəsinə olan sevgisi, müəllimlik peşəsinə verdiyi dəyər və müəllimlik peşəsində uğur qazanacaqlarına olan inancları ilə izah etmək olar.

Tədqiqatda müəllimliyə namizədlərin cinsiyyət dəyişəninə görə müəllimlik peşəsinə münasibəti araşdırıldıqda statistik əhəmiyyətli fərq görülməkdədir. Qadın müəllim namizədlərinin kişi müəllim namizədlərinə nisbətən müəllimlik peşəsinə daha müsbət münasibət bəslədikləri qənaətinə gəlinmişdir. Lakin, Parvez və Shakir (2013), Ekici (2014), Chakraborty, Mondal (2014), Akhtar və başqaları (2022), Balaban və Arslan (2022) apardıqları

tədqiqatda müəllim namizədlərinin peşələrinə münasibətlərinin cinsiyyət dəyişkəninə görə fərqlənmədiyi nəticəsini müəyyən ediblər. Efe və başqaları (2012), Kadir və başqaları (2015), Aliyu və Ado (2015), Muhammet və Sarigöz (2018), Balcı (2023) isə apardıqları tədqiqat nəticəsində müəllim namizədlərinin peşələrinə münasibətləri ilə cinsiyyətləri arasında statistik olaraq əhəmiyyətli fərqlilik olduğu nəticəsinə gəlmişdir. Bu tapıntılar həyata keçirilmiş tədqiqatı dəstəkləməkdədir. Araşdırma zamanı qadın tələbələrin müəllimlik peşəsinə münasibətinin kişi tələbələrə nisbətən yüksək olmasına səbəb kimi, cəmiyyətmizdə "müəllimlik qadın peşəsidir" anlayışı ilə izah etmək olar. Bu halın ortaya çıxmasının səbəblərindən biri, cəmiyyətdəki qadınların digər peşə qruplarına nisbətən müəllimlik peşəsini daha çox seçməsi ola bilər.

Pedaqoji ixtisaslarda oxuyan tələbələrin ailədə müəllimlik peşəsində təhsil alan şəxsin olub - olmaması dəyişəninə görə statistik əhəmiyyətli fərqlilik görülməmişdir. Lakin, bu nəticə Eraslan və Çakıcının (2011) araşdırmasının nəticələri ilə ziddiyyət təşkil edir. Belə ki, ailələrində müəllim olan namizədlərin ailələrində müəllim olmayanlara nisbətən daha müsbət münasibət göstərdiyi qənaətinə gəlinibdir. İlter (2009), Afacan və Kartal (2012), Taşdemir (2014) və Yılmaz (2015) tərəfindən aparılan araşdırmalar zamanı ailədə müəllimlik peşəsində təhsil alan şəxsin olub-olmaması dəyişənin müəllimlik peşəsinə münasibətdə əhəmiyyətli fərqlilik göstərmədiyi nəticəsinə gəliblər. Bu nəticəni, müəllimlik ixtisasında oxuyan tələbələrin, müəllimlik peşəsi seçərkən şəxsi qərar vermələri ilə şərh oluna bilər.

Pedaqoji ixtisaslarda oxuyan tələbələrin müəllimlik peşəsinə münasibəti qəbul balı dəyişəninə görə statistik olaraq əhəmiyyətli fərqlilik olmadığı müəyyən olunmuşdur. Bu nəticə, Gülsoy (2010), Gökçe ve Sezerin (2012) tədqiqatlarının tapıntıları ilə paralellik təşkil edir. Tədqiqat prosesində belə bir nəticənin ortaya çıxmasını, müəllim namizədlərinin müəllimlik ixtisasını istəyərək seçdiklərini, buna görədə müəllimlik peşəsinə daha müsbət münasibət bəslədikləri ilə izah etmək olar.

Pedaqoji ixtisaslarda təhsil alan müəllim namizədlərinin müəllimlik ixtisasları ilə müəllimlik peşəsinə münasibətləri arasında statistik əsaslı əhəmiyyətli fərq vardır. Belə ki, riyaziyyat və informatika müəllimliyi, azərbaycan dili və ədəbiyyatı, ibtidai sinif müəllimliyi, tarix müəllimliyi ixtisaslarında təhsil alan müəllim namizədlərinin müəllimlik peşəsinə müsbət münasibəti əhəmiyyətli şəkildə daha yüksəkdir. Bu nəticə, Terzi və Tezci (2007); Uzun, Sezer və Yanıkın (2012) araşdırma nəticələri ilə eynilik təşkil edir. İxtisaslara görə belə bir nəticənin ortaya çıxmasında, akademik heyətin, təhsil mühitinin və təhsil proqramının təsiri olduğu düşünülə bilər.

Müəllimlik peşəsi səbir və fədakarlıq tələb edən, məsuliyyətli və çətin peşədir. Son zamanlar cəmiyyətdə yaranan "Heç olmasa müəllim olsun" ideyası həm müəllimlik peşəsini dəyərdən salır, həm də bu peşəyə həvəssiz və bacarığı olmayan tələbələri təzyiq altında müəllim olmağa sövq edir. Müəllimlik peşəsinə müsbət münasibət bəsləyən və bu peşəyə uyğun xüsusiyyətlərə malik şəxslər yetişdirildikdə, həm keyfiyyətli təhsil sistemi təmin ediləcək, həm də bu sahənin tələblərinə uyğun keyfiyyətli müəllim kadrları yetişdiriləcək.

## 5.2. Təkliflər

Tədqiqat nəticəsində, əldə edilən tapıntılar və müzakirələr əsasında tədqiqata dair təkliflər iki başlıq altında verilir. Bunlardan ilki əldə edilən nəticələrdən yola çıxaraq praktiki təkliflərdir. Belə ki:

- Müəllimlik peşəsinə uyğun şəxsi keyfiyyətlərə malik olan şagirdləri, valideyn və məktəb əməkdaşlığı ilə bu peşəyə yönəldə bilər, bununla da müəllimlik üçün istedadlı və istəkli şəxslər yetişdirilə bilər;
- Müəllim namizədlərinin müəllimlik peşəsinə münasibətinin müsbət istiqamətdə inkişaf etdirilməsi üçün bütün tədris prosesində peşə ilə əlaqəli məlumatlandırma və həvəsləndirməyə yönəlmiş tədbirlər, müəllim hazırlığı proqramlarına daxil edildikdə müəllim namizədlərinin peşəyə qarşı münasibətləri daha da artırıla bilər;

- Pedaqoji ixtisaslarda təhsil alan müəllim namizədlərinin ünsiyyət və əməkdaşlıq bacarıqlarını təkmilləşdirəcək dərslər müəllim hazırlığı proqramına əlavə oluna bilər. Beləliklə ixtisas fərqindən müəllim peşəsinə münasibət balansı təmin edilə bilər;
- Bir çox təhsil fakültələrində müəllim namizədləri ya son kursda, ya da üçüncü kursun son semestrində təcrübə keçmək üçün məktəblərə göndərilir. Təhsil fakültələrində müəllim namizədləri birinci kursdan başlayaraq, tədricən müvafiq səviyyələrdə müxtəlif məktəblərə müəllimlik təcrübəsi üçün göndərilə bilərlər. Bu halda müəllim namizədləri birinci kursdan etibarən müəllimlik fəaliyyəti ilə tanış olmuş olar və eyni zamanda həm nəzəri, həm də təcrübi dərsləri paralel öyrənə bilər;
- Araşdırmanın tapıntıları arasında qadın müəllim namizədlərinin, kişi müəllim namizədlərinə nisbətən müəllimlik peşəsinə daha müsbət münasibət bəslədiyi müəyyən edilmişdir. Bunun əsasında kişi müəllim namizədlərinin bu peşəyə münasibətini artırmaq, mənfi düşüncələri aradan qaldırmaq üçün iqtisadi və sosial təkliflər ilə cəlbi artırıla bilər.

Əldə edilən nəticələrdən yola çıxaraq gələcək tədqiqatlar üçün bır sıra təkliflər təqdim edilməkdədir. Tədqiqata dair təkliflər aşağıda verilmişdir:

- Tədqiqat prosesində bir universitet və digər dəyişən (cins, qəbul balı, yaş, ixtisas və ailədə müəllimlik peşəsində şəxsin olub-olmaması) araşdırılma aparmaq üçün müəyyən edilmişdir. Başqa universitetlər və fərqli dəyişənlər daxil edilərək daha təfərrüatlı araşdırmalar edilə bilər;
- Tədqiqat zamanı müəllim namizədlərinin peşəyə münasibətini öyrənmək üçün məlumat toplama vasitəsi kimi anket sorğusundan istifadə olunmuşdur. Eyni məqsədlə, müəllim namizədlərindən müsahibə yolu ilə peşələrinə münasibətləri haqqında daha geniş məlumatlar toplana bilər;

- Bəzi araşdırmalarda cins dəyişkənliyinin peşəyə münasibətə təsir etdiyi, bəzilərində isə təsir etmədiyi müşahidə olunmuşdur. Bu fərqin səbəbini müəyyən etmək üçün keyfiyyətli tədqiqat metodlarından istifadə etməklə müxtəlif tədqiqatlar aparıla bilər.

Müəllimlərin fəaliyyəti zamanı, aşağı əmək haqlarının və əlavə iş yüklərinin olması, onların stres səviyyəsini artırır və işgüzarlığını azaldır. Bu vəziyyət, müəllimlərin rifahını və motivasiyasını aşağı salır. Əlavə olaraq, müəllimlər ictimai dəstək də tələb edirlər. Müəllimlərin maraqlarını qoruyan və dəstəkləyən bir ictimai atmosferin olması onların işində daha motivasiyalı olmalarına və rifahlarının artmasına kömək edə bilər. Bu problemlərin həlli üçün, təhsil sisteminin müəllimlərin əmək haqlarını artırmaq, iş yükünü azaltmaq, dəstək və təşəbbüs yaratmaq və ictimai dəstəyə diqqət yetirmək kimi addımlar atması vacibdir. Bu addımlar müəllimlərin rifahını artıraraq, təhsil keyfiyyətini yaxşılaşdıra bilər və ictimaiyyətin geniş dəstəyini qazana bilər (Özkan,2017).

Təhsil sisteminin səmərəliliyi və keyfiyyəti, müəllimin malik olduğu şəxsi və peşəkar keyfiyyətlərindən asılıdır. Pedaqoji ixtisaslarda təhsil alan müəllim namizədlərinin, ixtisas bilikləri öyrənməklə yanaşı, peşəyə olan münasibətləridə çox vacibdir. Çünki, müəllimlik peşəsi, diqqət tələb edən, sevərək həyata keçirilməli olan bir peşədir. Müəllim namizədlərinin müəllimlik peşəsinə olan münasibətlərini müəyyənləşdirmək məqsədi ilə həyata keçirilən tədqiqatlar keyfiyyətli müəllim hazırlığı ilə bağlı təlim siyasətlərini formalaşmasına kömək edə bilər.

# ƏDƏBİYYAT


Abbasov, A. və Hacıyev, A. (2012). *Müəllim hazırlığına müasir yanaşmalar*. Bakı: Mütrəcim.

Abanoz, G. (2021). ABD'de sosyal bilgiler öğretmen yetiştirme programları üzerine bir araştırma: Penn State Üniversitesi Örneği. *Ulusararası Disiplinlerarası Mükemmelilik Arayışı Dergisi (UDMAD)*,1(1), 2-20.

Alkhateeb, H. (2013). Attitudes towards teaching profession of education students in Qatar. *İnnovative Teaching,* 2(9), 1-5. https://doi.org/10.2466/01.03.IT.2.9

Aliyu, M. & Ado, B. (2015). Assessment of prospective teachers attitudes towards teaching profession: The case of Northwest University, Kano-Nigeria. *IOSR Journal of Research & Method in Education,* 5(3), 17-24. https://doi.org/10.9790/7388-05311724

Alkan, M.(2018). Öğretmen adaylarının öğretmenlik mesleğine yönelik tutumlarının incelenmesi. *International Journal of Educational Studies, 5*(1), 13-21.

Akhtar, M., Nawaz, H., & Munir, F. (2022). Attitude of university students towards the teaching profession in Pakistan: A case of public sector universities. *Journal of Development Policy, Research & Practice, 6,* 70 – 84. https://doi.org/10.59926/jodprp.vol06/05

Aksoy, E., & Gözütok, D. (2014). Amerika Birleşik Devletleri, Finlandiya, Singapur ve Türkiyede öğretmen eğitimindeki dönüşümler. *Eğitim Bilimleri ve Uygulama Dergisi*,13(25), 23-26.

Akçakaya, Y., Akkoyun, A., Balkan, M., Demir, G, A., Demir, A., Güneş, C., Okuşlug, M. (2023). Amerika Birleşik Devletleri ve Türkiyede Öğretmen Yetiştirme Sistemlerinin Karşılaştırılması. *İnternational Journal of Social and Humanities Sciences Research,* 10(94), 998-1011. doi: https://doi.org/10.26450/jshsr.3616

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında" 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli qərarı

Azərbaycan Respublikasının fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı, 2007-ci il 25 iyun tarixli 102 nömrəli qərarı.

ARTN (2014). *Bakalavriat səviyyəsinin ixtisas üzrə təhsil proqramı.* Ali Təhsil Pilləsinin Dövlət Standartı. Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 913 nömrəli 22 avqust 2014- cü il tarixli əmri.

ARTN (2016). "Gələcəyin Müəllimi" təqaüdü. https://edu.gov.az/upload/file/teqdimat/2016/06.pdf

ARTN (2020) Təhsilverənlərin Sertifikatlaşdırılması Şurasının yaradılması haqqında Azərbaycan Respublikası Təhsil nazirinin 155 nömrəli 30 aprel 2020-ci il tarixli əmri

ARTN (2020) Bakalavriat Səviyyəsinin (Əsas (Baza) Ali Tibb Təhsilinin İxtisas Üzrə Təhsil Proqramı.

ARTN (2024) "Təhsilverənlərin etik davranış qaydaları" haqqında Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 15 may 2024 cü-il tarixli KQ-07 nömrəli qərarı.

Arslan, Ü.G. & Vezne, R.(2021). Almaniya ve Türkiye mesleki eğitim öğretmeni yetiştirme sistemlerinin karşılaştırılması. *Instructional Technology and Lifelong Learning,* 2(1), 111- 134.

Balaban, H. & Arslan, Ş. (2022). Öğretmen adaylarının öğretmenlik mesleğine yönelik tutumları[Conference presentation: *UBAK*, 17 – 18]. Ankara, Trabzon üniversitesi

Balcı, S. (2023). Öğretmen adaylarının Akademik Motivasiyon Düzeyi İle Öğretmenlik Mesleğine Yönelik Tutumları Arasındakı İlişkinin İncelenmesi. *Ahi Evran Üniversitesi Kırşehir Eğitim Fakültesi Dergisi,* 24(1), 336-370. https://doi.org/10.29299/kefad.1145313

Bakioğlu, A. & Göçmen, G. (2014). *Singapur eğitim sistemi, Karşılaştırmalı Eğitim Yöntemi içinde*. Ankara: Nobel Akademik

Barber, M. & Mourshed, M. (2007). How the world's best- performing school systems come out on top. London: McKinsey and Company.

Becker, G. (2001). *Unterricht Planen Handlungsorientierte Didaktik.* Weinheimund Basel: Beltz Paedagogik

Boudersa, N. (2016). The İmportance of teachers training programs and professional development in the Algerian educational context: Toward in formed and effective teaching practies. Experiences Pedagogiques, 1(1), 1-14.

Chakraborty A., Mondal. B. (2014). Attitude of Prospective Teachers towards Teaching Profession. American Journal of Social Sciences, 2(6), 120-125.

Coşkun, A. (2021). *Seçilmiş OECD Ülkelerinde Öğretmen Yetiştirme Sistemlerinin Karşılıklı Olarak İncelenmesi ve Türkiye İçin Çıkarımlar* (Yayınlanmamış yüksek lisans tezi).

Coşkun, F. (2022). Öğretmenlik mesleği ve 21. Yüzyıl Becerileri. *Eğitim Bilimleri Eleştirel İnceleme Dergisi,* 3(1), 31-38.

Cohen, J. (1988). *Statistical power analysis fort he behavioral sciences (2nd ed).* Hillsdale, NJ: Erlbaum.

Çınar, K. & Doğan, C. (2019). Türkiye, Almaniya ve Finlandiya Öğretmen Yetiştirme Sistemlerinin İncelenmesi. *Karamanoğlu Mehmetbey Üniversitesi Edebiyyat Fakültesi Dergisi,* 2(2), 204-218.

Egwu, S. (2015). Attitude of Students towards Teaching Profession in Nigeria: *Implications for Education Development Journal of Education and Practice,*6(29), 21-25

Ekici, F. (2014). Öğretmen adaylarının öğretmenlik mesleğine yönelik tutumlarının çeşitli değişkenler açısından incelenmesi (İstanbul Sabahattin Zaim Üniversitesi örneği). *Uluslararası Sosyal Araştırmalar Dergisi,* *7*(35), 658-665. https://hdl.handle.net/20.500.12436/1414

Eraslan, L. & Çakıcı, D.(2011). Pedagojik formasyon programı öğrencilerinin öğretmenlik mesleğine yönelik tutumları. *Kastamonu Eğitim Dergisi, 19(2),* 432-438.

Eraslan, L.(2015)**.** Tarihsel Perspektiften Öğretmenlik Mesleği. Eğitim Ve Rehberlik Makaleleri

Gurbetoğlu, A. (2019). Öğretmen Eğitimi Yaklaşımları. İstanbul Sabahattin Zaim Üniverversitesi Egitim Fakültesi. İstanbul.

Gökçe, F. & Sezer, G. O.(2012). Öğretmen adaylarının öğretmenlik mesleğine yönelik tutumları (Uludağ Üniversitesi örneği*). Uludağ Üniversitesi Eğitim Fakültesi Dergisi, 25 (1),* 1-23.

Gülsoy, F. (2010). *Marmara Üniversitesi Eğitim Fakültesi Fizik Öğretmenliği öğrencilerinin öğretmenlik mesleğine ilişkin tutumları.* (Yayımlanmamış Yüksek Lisan Tezi). Marmara Üniversitesi Eğitim Bilimleri Enstitüsü, İstanbul.

İlyasov, M.(2018). *Müəllim Peşəkarlığı Və Pedaqoji Səriştəliliyin Müasir Problemləri. Monoqrafiya.* Bakı: Elm və Təhsil.

İlter, İ.(2009). *Öğretmen adaylarının öğretmenlik mesleğine ilişkin tutumlarının bazı değişkenler acısından incelenmesi*. (Yayımlanmamış Yüksek Lisans Tezi). Fırat Üniversitesi Sosyal Bilimler Enstitusü, Elazığ.

Özkan, Y. (2017). *Fen bilgisi ve sınıf öğretmen adaylarının öğretmenlik mesleğine yönelik tutumlarının incelenmesi.* ( Yayımlanmamış yüksek lisans tezi). Akdeniz Üniversitesi Eğitim Bilimleri Enstitüsü, Antalya

Özkan, E. (2020). *Sosyal bilgiler öğretmen adaylarının öğretmenlik mesleğine yönelik tutumlarının incelenmesi (Burdur ve İsparta örneği)*( Yayınlanmamış yüksek lisans tezi). Burdur Mehmet Akif Ersoy Üniversitesi.

Özden, Y. (2002). *Öğretmenlik Mesleğine Giriş.* Ankara: Pagem Akademi.

Kartal, T. & Afacan, Ö. (2012) Pedagojik formasyon eğitimi alan öğretmen adaylarının öğretmenlik mesleğine ilişkin tutumlarının incelenmesi. *Mehmet Akif Ersoy Üniversitesi Eğitim Fakültesi Dergisi, (24),* 76-96.

Kadir, K., Zihni, M. & Murat, K . (2015). Sosyal bilgiler öğretmen adaylarının öğretmenlik mesleğine yönelik tutumları. *Van Yüzüncü Yıl Üniversitesi Eğitim Fakültesi Dergisi, 12*(1), 72 – 96.

Kilimci, S.(2006*). Almanya, Fransa, İngiltere ve Türkiyede sınıf öğretmeni yetiştirme programlarının karşılaştırılması* (Yayınlanmamış Doktora Tezi). Çukorova Üniversitesi Eğitim Bilimleri Fakültesi, Adana.

Kuyumcu, E. & Kaya, İ. (2020). Öğretmenlerin öğretmenlik mesleklerine yönelik tutum ve görüşlerinin incelenmesi, *E-Kafkas Journal of Educational Research,* 7(3), 333-366. https://doi.org/10.30900/kafkasegt.766974

Kumar, V. (2016). Attitude of postgraduate students towards the teaching profession. MİER *Journal of Educational Studies, Trends & Practices,* 6(2) 193-203. https://doi.org/10.52634/mier/2016/v6/i2/1438

Malaty, G. (2007). What are the reasons behind the success of Finland in Pisa? *Gazette des Mathematiciens,* 108, 59-66.

Muradlı, T. & Şahmuradova, G (2022). Müəllimlərin peşəkar inkişaf səviyyəsinin təkmilləşdirilməsi yolları. *Azərbaycan məktəbi,* 3(7) 51-58.

Muhammet, B. & Sarigöz, O. (2018). An examination of teacher candidates' attitudes towards teaching profession. *International Journal of Educational* ,10(4), 25-32

*NCEE (National Centre for Entrepreneurship in Education) (2015). "South Korea intructional Systems"*[http://www.ncee.org/programs-affiliates/center-oninternational-educationbenchmarking/top-performing-countries/south-koreaoverview](http://www.ncee.org/programs-affiliates/center-oninternational-educationbenchmarking/top-performing-countries/south-koreaoverview).

Orakçı, Ş.(2015), Şangay, Hong Kong, Singapur, Japonya ve Güney Kore"nin Öğretmen Yetiştirme Sistemlerinin İncelenmesi, *Asya Öğretim Dergisi,* 3(2), 26-43.

Özkan, Y.(2017). *Fen bilgisi ve sınıf öğretmen adaylarının öğretmenlik mesleğine yönelik tutumlarının incelenmesi* (Yayınlanmamış Yüksek Lisans Tezi). Akdeniz Üniversitesi, Antalya.

Rüstəmov, F. (2013). Keyfiyyətli müəllim kadrları hazırlığında yeni mərhələ. *Azərbaycan müəllimi qəzeti*, 6 dekabr, №47

Tabachnick, B. G. & Fidell, L. S. (2007). *Using multivariate statistics* (5th ed.). Allyn & Bacon/Pearson Education.

Taşdemir, C. (2014) İlköğretim matematik öğretmen adaylarının öğretmenlik mesleğine yönelik tutumlarının incelenmesi. *Bilgisayar ve Eğitim Araştırmaları Dergisi, 2(3),* 91-114.

Terzi, A.R. & Tezci, E.(2007). Necatibey Eğitim Fakültesi öğrencilerinin öğretmenlik mesleğine ilişkin tutumları. *Kuram ve Uygulamada Eğitim Yönetimi,*52. 593-614.

UNESCO (2012). Unesco strategy on teachers (2012-2015). Retrieved on April, 9, 2013.

Üstüner, M. (2006). Öğretmenlik Mesleğine Yönelik Tutum Ölçeğinin Geçerlik ve Güvenirlik Çalışması. *Educational Administration: Theory and Practice* (45), 109-127.

Ünal, S. (2021). Öğretmenlik mesleğinin tanımı, önemi və öğretmenlerin değişen roller üzerine nitel betimsel bir araştırma. *İstanbul Ticaret Üniversitesi Sosyal Bilimler Dergisi,* 20(42), 1481-1504.

Üzeirli, E. & Kılıçoğlu, G. (2021). Türkiye ve Azerbaycan 'da sınıf öğretmeni yetiştirme sürecinin incelenmesi. *Eğitim ve Bilim,* 1-27

Parvez, M. & Shakir, M. (2013). Attitudes of Prospective Teachers towards Teaching *Profession Journal of Education and Practice,*4(10)

Paşayev, T. (2017). Müəllim peşəsi və həyat. *Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri,* 86(6), 310-313

Sahlberg, P. (2018). *Eğitimde Finlandiya Modeli,* İstanbul: Metropolis Yayıncılık.

Sütçü, N. & Oral, B. (2021). Öğretmenlerin mesleklerine yönelik tutumlarını yordayan değişkenlerin CHAID Analizi ile incelenmesi. *Cumhuriyet Uluslararası Eğitim Dergisi*, 10(2), 799-824.

Şahbazov. İ. (2019). *Tədqiqat metodları*. Teas Press

Süleymanova, A. (2010). Azərbaycan müəllimi http://anl.az/down/meqale/az_muellimi/2010/iyun/122738.htm

Vəliyev, A. (2015). Sosial elmi tədqiqatlar anlayışı, prinsipləri, metodları və müxtəlif nəzəri yanaşmalar. *Sosial elmlərdə araşdırmanın metodikası*. Bakı, QHT, 59-74.

Verdiyeva, M. (2019). Gələcək müəllimin peşə səriştəliliyinə yiyələnməsinin forma və metodları. *Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri*, 86(3) 178-181.

Yaman, B. (2018). Türkiye, Almanya ve Fransada Öğretmen Yetiştirme. *Akademik Sosyal Araştırmalar Dergisi,* 6(83), 328-333.

Yazıcıoğlu, Y.& Erdoğan, S. (2004). *SPSS uygulamalı bilimsel araştırma yöntemleri*. Ankara: Detay Yayıncılık.

Yahaya, M. (2018*). Bazı gelişmiş ülkeler ile Nijer"deki sınıf öğretmenlerinin rğitimi ve istihdamı konusunda karşılaştırmalı bir analiz*, ( Yayınlanmamış Doktura Tezi), Hacettepe Üniversitesi Eğitim Bilimleri Entitüsü, Ankara.

Yanık, C., Sezen, N. & Sarı Uzun, M. (2012). Öğretmen adaylarının mesleğe yönelik tutumları ve mezuniyrt sonrası planları üzerine. *Haccettepe Üniversitesi Eğitim Fakültesi Dergisi. ( H.U. loumal of Education)*, Özel Sayı 2: 222-231.

Yılmaz, İ. (2015). *Sınıf öğretmeni adaylarının öğretmenlik mesleğine yönelik tutumlarının çeşitli değişkenlere göre incelenmesi*. ( Yayımlanmamış Yüksek Lisan Tezi ). Mehmet Akif Ersoy Üniversitesi Eğitim Bilimleri Enstitüsü, Burdur.

Yeşil, S. (2016). *Pisa sınavlarında başarılı ilk beş ülkenin öğretmen yetiştirme və istihdamı sistemleri ile Türkiye'nin öğretmen yetiştirme ve istihdam sisteminin karşılaştırılması*,( Yayınlanmamış Yüksek Lisans Tezi), Eğitim Yöntemi, Teftişi, Planlaması ve Ekonomisi Anabilim Dalı, Gaziantep.

Zarzolawmi, W. (2019). Attitude of secondary school teacher of Aizawl Distirct Towards Teaching Profession, University of Mizoram, Tanhril.

Wagner, T. & Imanuel, D. (2014). Are they genuinely novice teachers? Motivations and selfefficacy of those who choose teaching as a second career. *Australian Journal of Teacher Education*, 39(7), 31-57.

**Qoşmalar**

# Qoşma 1. Ölçmə aləti

| Suallar | | Tamamilə razıyam | Razıyam | Qərarsızam | Razı deyiləm | Tamamilə razı deyiləm |
|---|---|---|---|---|---|---|
| 1 | Müəllim olmaq fikri mənə cəlbedici gəlir | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 2 | Müəllimlik peşəsi mənim üçün cansıxıcıdır. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 3 | Müəllim olmağı özümə yaraşdırıram. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 4 | Təkrar ixtisas seçməli olsam, yenidən müəllimlik ixtisasını seçərdim. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 5 | Düşünürəm ki, müəllimlik mənə uyğun peşə deyil | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 6 | Müəllimliyin yaşam tərzimə uyğun olmadığını düşünürəm. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 7 | Müəllimliyin şəxsiyyətimə uyğun olmadığini düşünürəm. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 8 | Müəllimlik ixtisasını seçdiyimə görə peşman oluram. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 9 | Müəllimlik peşəsində uğur qazanacağıma inanıram. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 10 | Müəllimlik peşəsi ilə əlaqəli hal-hazırda təhsil aldığım proqramı seçməkdən məmnunam. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 11 | Müəllimlik peşəsində qarşılaşacağım çətinliklərin öhtəsindən gələcəyimə inanıram. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 12 | Ən çətin şərtlər altında belə müəllim kimi çalışmaq istərdim. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 13 | Müəllimlik peşəsinin tələblərinə uyğun fəaliyyət göstərəcəyimdən əminəm. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 14 | Müəllimliklə bağlı xüsusi istedadımın olduğunu düşünürəm. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 15 | Müəllimliyin mənə uyğun peşə olmadığını düşünürəm. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 16 | Düşünürəm ki, müəllimlik mənə yaradıcı olmağım üçün fürsətlər verəcək. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 17 | Peşəkar müəllim olacağıma inanıram. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 18 | İnsanlara bilmədiklərini öyrətmək fikri məni sevindirir. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 19 | Müəllim kimi çalışan insanlara yüksək hörmət hissi duyuram. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 20 | Müəllim olmaq fikri məni qorxudur. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 21 | İxtisas seçimi qarşısında olanlara müəllimlik ixtisasını seçməyi tövsiyə etmərəm. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 22 | Düşünürəm ki, müəllim olanda edəcəyim çox şey var. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 23 | Müəllimliyin iş şəraiti mənə cəlbedici gəlir. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 24 | Müəllimlik ixtisasına dair keçirilən dərslərdə naliyyət qazanmağı vacib hesab edirəm. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 25 | Müəllim işləyən insanlarla söhbət etməyi sevirəm.. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 26 | Mən, təhsil, öyrənmə,öyrətmə müəllimlik, haqqında olan mövzularda mübahisə etməyi və danışmağı sevirəm. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 27 | Düşünürəm ki, savadlı və bacarıqlı müəllim olacağam. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 28 | Müəllimliyin cəmiyyətdə mənə nüfuz qazandıracağına inanıram. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 29 | Hal-hazırda oxumaqda olduğum müəllimlik ixtisasını bilərək və istəyərək seçmişəm. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 30 | Müəllimlik peşəsinin mənə çətinliklər yaradacağından narahatam. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 31 | Müəllim kimi çalışaraq, öyrətdiklərimlə insanların həyatında mühüm rol oynayacağım üçün qürur duyuram. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 32 | Mən təhsil, öyrənmə, öyrətmə və müəllimlik peşəsi ilə bağlı digər məsələlər haqqında danışmağı və müzakirə etməyi sevmirəm. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 33 | Müəllimlik edən zaman ətrafımda olan insanlar tərəfindən mənə yetərincə dəyər veriləcəyinə inanıram. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |
| 34 | Müəllimlik peşəsinin uzunmüddətli olması mənə güvən verir. | ( ) | ( ) | ( ) | ( ) | ( ) |

**Qoşma 2. Ölçmə alətinin istifadəsi üçün razılıq məktubu**

MEHMET ÜSTÜNER
Malahat Asgarova

13:56

TUTUM_ÖLÇEĞİ_MADDELER.doc
DOC - 73 KB

Sayın Melahat ASGAROVA, bahsi geçen ölçeği (öğretmenlik mesleğine yönelik tutum ölçeği) yapacağınız araştırmada kullanmanızda tarafımdan bir sakınca görülmemektedir, kullanabilirsiniz, hoşçakalın.

Malahat Asgarova <masgarova16735@ada.edu.az>, 4 Kas 2023 Cmt, 09:13 tarihinde şunu yazdı:

...

# Qoşma 3. Ölçmə aləti ilə bağlı mütəxəssis rəyi

ADA Universitetinin Təhsil fakültəsinin
"Təlim və tədrisin təşkili və metodikası"
ixtisası üzrə magistrantı Əsgərova
Məlahətə

Hörmətli Məlahət xanım,

"Pedaqoji ixtisaslarda oxuyan tələbələrin müəllimlik peşəsinə münasibəti. Bakı Dövlət Universitetinin Qazax filialı nümunəsində" mövzusunda dissertasiya işinizlə əlaqəli olaraq istifadə edəcəyiniz anket sorğunun təhlili və şərhi üçün 27 noyabr 2023-cü il tarixli müraciətinizə əsasən aşağıdakı şərhlərimi verirəm:

-Birinci sualda "Müəllim olmaq fikri məni cəlb edir" cümləsini "Müəllim olmaq fikri mənə cəlbedici gəlir" cümləsi ilə əvəz etsəniz məqsədə uyğun olar.

-On altıncı sualda "məhsuldar" ifadəsini "yaradıcı" ifadəsi ilə əvəz etsəniz məqsədəuyğun olar.

Bu şərhləri nəzərə alaraq düzəltmə etməyiniz məsləhət görülür. Təhsilinizdə uğurlar arzulayıram.

Hörmətlə,

İmza: Yaliyev f.e.d Yadigar Əliyev

Tarix: 05 dekabr 2023-cü il